www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 dekabr 2015-ci il Bazar ertəsi № 272 (6300) Qiyməti 40 qəpik

**Xəbər**

## Biləsuvar dəhşət: avtoqəzada bir ailə məhv oldu

yazısı səh.14-də

**Gündəm**

## Cahangir Hacıyev həbsdə - növbə Eldar Mahmudova çatdı



Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri anasının 40 mərasimindən sonra hamı ilə sağollaşaraq məhkəməyə gedib; sabiq MTN şefinin həbsi barədə də yaxın günlərdə qərar verilə bilər...

yazısı səh.5-də

## Yeni il yeni bahalaşma gətirəcək - xəbərdarlıq...

yazısı səh.10-da

*Hafiz Hacıyev:*

## "İlham Əliyevə dəstək verək, korrupsionerləri daha arxayın təmizləsin..."

yazısı səh.6-da

## Müxalifətin Nardaran olaylarına çəkingən münasibətinin səbəbi bilindi

yazısı səh.6-da

*Əcnəbi neft mütəxəssisi:*

## "Günəşli"dəki dəhşətli qəzadan qaçmaq olardı..."

yazısı səh.4-də

*Ekspert:*

## "Rusiyanın Türkiyəyə görə Azərbaycana qarşı təxribatı istisna deyil"

yazısı səh.9-da

## Nardarandan son xəbər: sosial problemlər, ölənlərin sayı ilə bağlı müəmma...

yazısı səh.2-də

*Qulu Məhərrəmli:*

## "Həlak olanlarla bağlı həqiqəti xarici mətbuatdan eşitməyimiz biabırçılıqdır"

yazısı səh.10-da

## Prezidentlərin görüş tarixi dəqiqləşdi, bəs görüş yeri?

yazısı səh.11-də

## Polkovnik generaldan ölkə rəhbərliyinə şikayət etdi

yazısı səh.14-də

### Azərbaycanı yasa boğan olay: Xəzərdən gələn təbii fəlakət, yoxsa...

# 30 NEFTÇİMİZİ UDAN "GÜNƏŞLİ" FACİƏSİNİN ŞOK TƏFƏRRÜATLARI

Dəhşətli yanğında itkin düşənlərin axtarışı davam edir; ölkədə matəm elan olundu; fəlakətdən qurtulanlar danışdı; SOCAR-ın vitse-prezidenti "Yataq partladılmayıb" dedi, ekspertlər isə məsuliyyətsizlik və təxribat amillərinə diqqət yönəldir...




yazısı səh.3-də

## Rusiyaya qarşı "Türk təhlükəsizlik kəməri" - Bakı həssas nöqtədə...

Kremlin davamlı hədələri Türkiyəni təcili şəkildə kontur-tədbirlər görmək və çevik diplomatiya aparmaq zorunda qoyub; Əhməd Davudoğlunun Azərbaycan səfərindən dərhal sonra Ərdoğanın Türkmənistana yollanmasının pərdəarxası; Bakı yeni risklərdən yayına bilər, əgər...

yazısı səh.8-də



*Eldar Quliyev:*

## "Gedib məsciddə moizə oxumalıydım?.."

yazısı səh.7-də



*Ramiz Novruz:*

## "Elə şeylər var ki, onu tamaşaçı bilməməlidir"

yazısı səh.13-də



Tariyel Əhmədov

## Prorektorun qətlində "MTN izi" - sensasion təfərrüatlar

yazısı səh.12-də




# Nardarandan son xəbər: sosial problemlər, ölənlərin sayı ilə bağlı müəmma...

## Kənd polis nəzarətində və hələ də işıqsızdır

**Noyabrın 26-da Nardaranda polislə dindarlar arasında baş verən silahlı qarşıdurmadan sonra kənd hələ də polis və Daxili Qoşunların nəzarətindədir. Kəndin bütün girişlərində polislər tərəfindən postlar qalmaqdadır. Kəndə girən və çıxan bütün maşınlar yoxlanılır. Polis postlarının olduğu yollar beton piltələrlə bağlanıb. Son rəsmi məlumata görə, dekabrın 1-dən kənddə keçirilən əməliyyat zamanı həbs edilənlərin sayı 32 nəfərdir.**

Nardaranın mərkəzi hissəsi sayılan İmam Hüseyn meydanında Daxili Qoşunların qərargahı yaradılıb. Fövqəladə Hallar Nazirliyi tərəfindən xidmətdə olan əsgərlər üçün çadırlar qurulub.

Musavat.com xəbər verir ki, hazırda Nardaranda sakinləri narahat edən məsələlər sosial problemlərlə bağlıdır. Təbii qazın bir neçə ildir olmaması, məlum hadisələrdən sonra isə elektrik enerjisinin kəsilməsi sakinləri qış aylarında ciddi problemlə üz-üzə qoyub. Hazırda kənddə yeni qaz sayğaclarının quraşdırılması, qaz borularının təmir edilməsi istiqamətində işlər görülür.

Noyabrın 27-dən kəsilən elektrik enerjisinin də nə zaman veriləcəyi sual altındadır. "Azərişıq"dan verilən məlumata görə, işıq xətləri yenidən bərpa olunduqdan, sayğaclar quraşdırıldıqdan sonra sakinlərlə müqavilə bağlanacaq. Müqavilənin şərtləri ilə razı olan sakinlərə elektrik enerjisi veriləcək.

Kənd sakinlərinin hazırda qarşılaşdığı digər problem isə avtobusların hərəkəti ilə bağlıdır. Belə ki, Nardarana gələn avtobuslar kəndin mərkəzinə buraxılmır. Nardaran Ağsaqqallar Şurasının sədri Natiq Kərimov musavat.com-a açıqlamasında bildirdi ki, kəndə gələn avtobusların hərəkətinin bərpa olunması ilə bağlı mətbuatda yazılanlar yalandır: "Kəndin mərkəzinə avtobus buraxılmır. Mən heç öz maşınımla kəndə girə bilmirəm. Avtobus kəndin yuxarısına gəlir. Yazıblar ki, avtobuslar kəndə buraxılır. Hanı? Hara gəlir? Biz niyə görmürük?".

Hazırda kənddə qazın, işığın olmadığını deyən N.Kərimov problemlərin tezliklə həll ediləcəyinə ümid etdiklərinə dedi.

Polislə qarşıdurmada öldürülənlərin meyitlərinin dəfn edilməsinə gəlincə isə, N.Kərimov bildirib ki, 4 nəfər kəndin "köhnə qəbristanlıq" deyilən ərazisində dəfn edilib: "Dörd nəfər dəfn edilib. Onların cənazə namazını qılmışıq. Onlar Sarvan Səfərov, Əkbər Babayev və Rafael, Fərail Bünyatov qardaşlarıdır. Sarvan Səfərov Masallıdandır. Onu burada dəfn etdilər. Dəfn mərasimində Sarvanın atası iştirak edə bilmədi".

Meyitlər dekabrın 4-də ailəsinə təhvil verilib. Ölənlərin sayının isə 4 yox, 5 nəfər olduğu bildirilirdi. Polislə qarşıdurmada öldürüldüyü deyilən dindarların sırasında ilk olaraq Abbas Hüseynovun adı sosial şəbəkələrdə yayılmışdı.

Abbas Hüseynovun adı polisin keçirdiyi əməliyyat zamanı saxlanılanların siyahısında da var. A.Hüseynovun sağ olması ilə bağlı bir neçə gün əvvəl sosial şəbəkədə qardaşının adından məlumatlar da paylaşılmışdı.

Xatırladaq ki, silahlı qarşıdurma zamanı iki polis əməkdaşı da dünyasını dəyişmişdi. Onlar II Fəxri Xiyabanda dəfn ediliblər.

❑ **İlkin MURADOV**

# Xilas olan neftçi: "Su soyuq olsa da, üzüb çıxdım, qalanları isə..."

**"Platformadakı yanğın güclü küləkdən baş verdi. Qəfildən güclü partlayış oldu. Bizə əvvəlcədən xətlərlə bağlı xəbərdarlıq edilməmişdi". Bunu virtualaz.org saytının müxbiri ilə söhbətində "Günəşli" neft yatağındakı 4 dekabr dəhşətini yaşayan, hazırda Mərkəzi Neftçilər Xəstəxanasında müalicə olunan energetik Ənvər Əliyev deyib.**



Ə.Əliyevin sözlərinə görə, neft-qaz platformalarında belə hadisələrin baş verməsi əslində o qədər də təəccüblü deyil: "Çünki neftçi işinin xüsusiyyəti budur. Bu sahədə iş prosesi çətindir. Amma xoşbəxtlikdən o vəziyyətdə ölənlərin deyil, xilas olanların sayı çox oldu".

Güclü külək və yanğının xilasetmə işlərini çətinləşdirdiyini deyən şahid həmin anları belə xatırlayır: "Biz rezin qayığa mindik, amma az sonra külək qayığı aşırdı. Bu zaman iki nəfər boruların üstünə yıxıldı. Qayıq cırıldı. Həmin vaxt qayıqda çox adam vardı. Qayıq parcalananda iki nəfər xilas oldu. Biz iki nəfər isə suya düşdük. Su soyuq olsa da üzüb çıxa bildik. Qalanları isə yəqin ki, batdı. Mənim daha sonra onlardan xəbərim olmadı".

Ə.Əliyev necə xilas edilməsindən də söz açdı: "Bizi "Topaz" firmasının gəmisi xilas etdi. O gəmidəki uşaqlar suya tökülüb bizi xilas etdilər. Onlar gəlməsəydilər, biz ölərdik. Həmin məqamda xilasetmə işləri çox riskli idi. Güclü külək əsirdi, su soyuq idi, hündür dalğalar vardı. O uşaqlar özlərini niyə təhlükəyə atmalarının səbəbini sonradan açıqladılar. Dedilər ki, biz neftçilərin başına gələn hadisəni izlədik və dözə bilmədik".

Ə.Əliyev öldü-qaldısı hələ də bilinməyən neftçi həmkarlarının taleyinə görə çox narahat olduğunu dilə gətirib: "Suya düşənlərin sağ qalma ehtimalı azdır. Çünki hava şəraiti pisdir. Su dondurucu dərəcədə soyuqdur, dalğalar xilasetməyə mane olur".

# Arvadını güllələyən ağsaqqalın məhkəməsi başlayır

**Həyat yoldaşını odlu silahla qətlə yetirməkdə ittiham olunan 1949-cu il təvəllüdlü İsgəndər Məmmədovun cinayət işi üzrə istintaq yekunlaşıb.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, cinayət işi üzrə toplanmış materiallar baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Cinayət işi hakim Əfqan Hacıyevin icraatına verilib.

Xatırladaq ki, qətl hadisəsi bu il aprelin 20-də Rəsulzadə qəsəbəsi, H.Məmmədquluzadə küçəsində yaşayan İsgəndər Məmmədova məxsus evdə baş verib. I qrup əlil olan İ.Məmmədov ailə münaqişəsi zəminində "Toz-34" markalı, 12 çaplı qoşalülə ov tüfəngindən atəş açaraq həyat yoldaşı Heyran Məmmədovanı qətlə yetirib.

İ.Məmmədov Binəqədi Rayon Polis İdarəsinin 4-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində tutulub. İlkin məlumatda İ.Məmmədovun intihara cəhd edərkən həyat yoldaşının ona mane olduğu, bu zaman atəş açıldığı və qadının aldığı güllə yarasından öldüyü bildirilib.

Qeyd edək ki, törətdiyi cinayət əməlinə görə İ.Məmmədova qarşı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham irəli sürülüb.

# Valideynləri cəzalandıracaq qurum müəyyənləşdi

**Azərbaycanda dünyəvi icbari ümumi orta təhsil üzrə dərs gününün şagird tərəfindən bir ay ərzində 7 gündən çox buraxılmasına görə şagirdlərin valideynlərini 100 manat miqdarında cərimələyəcək orqanlar müəyyənləşdirilib.**



APA-nın məlumatına görə, bu, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 32-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 5 dekabr 2015-ci il tarixli fərmanında əksini tapıb. Fərmana əsasən, bu xarakterli inzibati xətalar haqqında işlərə yerli icra hakimiyyəti başçısının şəhər, qəsəbə, kənd və ya sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri baxacaq.

Qeyd edək ki, Milli Məclis dekabrın 4-də İnzibati Xətalar Məcəlləsində dəyişiklik barədə qanun qəbul edib. Dəyişikliyə əsasən İnzibati Xətalar Məcəlləsinə 51.1-1. Maddəsi əlavə edilib. Həmin maddədə qeyd edilib ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səbəblər istisna olmaqla, dünyəvi icbari ümumi orta təhsil üzrə dərs gününün şagird tərəfindən bir ay ərzində 7 gündən çox buraxılmasına görə valideynlər yüz manat miqdarında cərimə ediləcək.

Fərmanda Nazirlər Kabinetinə dünyəvi icbari ümumi orta təhsil üzrə dərs gününün şagird tərəfindən bir ay ərzində 7 gündən çox buraxılmasına görə inzibati cəriməni istisna edən səbəbləri müəyyən etmək də tapşırılıb.



# Türkiyədə kişi arvadını və iki uşağını öldürdü

**Türkiyədə dəhşətli qətl hadisəsi baş verib. Kişi əvvəl arvadını, daha sonra isə iki övladını bıçaqlayaraq qətlə yetirib. ANSPRESS-in Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, hadisə Aydın vilayətində qeydə alınıb. Həyat yoldaşı ilə boşanmaq üzrə olan Fatih Yavuz adlı şəxs həyat yoldaşı ilə övladlarını otelə qonaq aparıb. Daha sonra əsəbiləşən F.Yavuz əvvəlcə 20 yaşlı həyat yoldaşınının boğazını kəsib, daha sonra isə 3 yaşlı qızını və bir yaşı tamam olmayan oğlunu qarın nahiyəsindən bıçaqlayaraq qətlə yetirib.**

Polis həyat yoldaşını və uşaqlarını qətlə yetirdikdən sonra yaxınlarına zəng vurub halallıq istəməsindən sonra xəbər tutub. Məlumata görə, evli cütlük dekabr ayının 15-də boşanmaq üçün hakim qarşısına çıxacaqmış.

Fatih Yavuz və arvadı oteldə uşaqlarını yatızdırıb söhbət etməyə başlayıblar. Bir müddət söhbət edən cütlük arasında mübahisə yaranıb və kişi belə bir addıma əl atıb.

Vida məktubu yazıb daha sonra bacısına zəng vuran kişi, halallıq istəyib. Ailə üzvləri onun danışığından şübhələnərək polisə müraciət ediblər. Polis onların olduğu otelə gedib otağın qapısını döyüblər. Heç kimin qapını açmadığını görən polis əməkdaşları qapını qıraraq içəri girib və Fatihin özünə bir neçə bıçaq vurduğunu, bununla bərabər boğazına bıçaq direədiyini görüblər. Bıçağı onun əlindən alan polis əməkdaşları xəsarət alan kişini xəstəxanaya aparıblar. Xəstəxanada lazımi yardım göstərilən Fatih Y. tutularaq istintaqa cəlb edilib.


"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qə-

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015

## Azərbaycanı yasa boğan olay: Xəzərdən gələn təbii fəlakət, yoxsa...

# 30 neftçimizi udan "Günəşli" faciəsinin şok təfərrüatları

### Dəhşətli yanğında itkin düşənlərin axtarışı davam edir; ölkədə matəm elan olundu; fəlakətdən qurtulanlar danışdı; SOCAR-ın vitse-prezidenti "Yataq partladılmayıb" dedi, ekspertlər isə məsuliyyətsizlik və təxribat amillərinə diqqət yönəldir...

**Dekabrın 4-də saat 17:40 radələrində "Günəşli" yatağının 10-cu Dərin Dəniz Özülündə baş vermiş dəhşətli faciə Azərbaycanı yasa qərq etdi. Hadisənin baş verməsinə səbəb kimi güclü külək nəticəsində qaz borusunun qırılması və dəhşətli yanğının baş verməsi göstərilir.**




Məlumatlara görə, yanğından qorunmaq istəyən fəhlələr platformada olan rezin qayıqları dənizə sallayaraq xilas olmağa çalışıblar. Platformadakı iki rezin qayıq kəndirlərlə dənizə buraxılıb. Lakin şiddətli küləyin yaratdığı 6-7 metrlik dalğalar qayıqların suya salınmasına imkan verməyib. Birində 30-a yaxın, digərində isə 36 neftçinin olduğu qayıqlar saatlarla platformanın kənarında asılı qalıb. İddialara görə, neftçilərin bəzilərində xilasedici jiletlər olmayıb. Hündür dalğalar qayıqları platformaya çırpıb. Neftçiləri xilasa gələn vertolyotlar güclü yanğın, gəmilər isə güclü külək və dalğa səbəbindən platformaya yaxınlaşa bilməyiblər.

Hadisə baş verən zaman özüldə 64 nəfərin xidmətdə olduğu deyilir. Onlardan 33 nəfərin xilas edildiyi bildirilir. 2 nəfərin isə öldüyü rəsmən təsdiqlənib. 29 nəfər itkin düşmüş sayılır. İtkin düşənlərin həlak olmasına artıq heç kəsdə şübhə qalmır. Dəhşətli hadisədə xilas edilənlər 5 dekabr tarixində Mərkəzi Neftçilər Xəstəxanasına yerləşdirilib. Xəstələrdən 22 nəfəri, ilkin tibbi yardım göstərildikdən sonra ambulator müalicəyə buraxılıblar. Xilas edilənlərdən birində yanıq xəsarətləri olduğu üçün o, 5 nömrəli Şəhər Klinik Xəstəxanasının Yanıq Şöbəsinə yerləşdirilib; vəziyyəti stabildir. Dekabrın 6-da səhər saatlarında səhiyyə naziri Oqtay Şirəliyev xəstələrə baş çəkib. O, hər bir xəstənin vəziyyəti ilə maraqlanaraq, palatalarında olub. Səhiyyə Nazirliyindən bütün yaralılar üçün zəruri tədbirlərin görüldüyü bildirilib.

Hadisə baş verən zaman platformada olanların sayının 60-dan çox olduğunu yaralılardan biri mətbuata açıqlayıb. Faciəni öz gözləri ilə görən yaralı dəhşətli hadisəni belə nəql edib: " Qayıqlara minib oturduq, bundan sonra da FHN gəldi bizi xilas etdi. Orda olanların dəqiq siyahısını deyə bilmərəm, amma təxminən 60-dan yuxarı olmalıydı. Dalğanın hündürlüyü 8 metr idi, heç bir texnika yaxınlaşa, helikopter düşə bilmirdi. Havanın küləkli olması təxliyə olmamıza mane olurdu".

Hadisə zamanı iki qabırğasının sınığı və kəllə-beyin travması ilə xəstəxanaya qəbul edilən Mərdan Rəcəbov bunları deyib: "İşləyirdik, birdən bizə dedilər ki, təcili hər kəs xilasedici jileti geyinsin. Biz də tez geyindik. Sonra qayıqla bizi aşağı salladılar. Güclü külək var idi. Dalğaların hündürlüyü 10 metrə qədər idi. Bizim qayığı dalğa vurub dəmirlərin arasına saldı. Qayıqda 26 nəfər idik. Mənimlə birlikdə digər işçilər də məhz qayığın platformanın dəmirlərinə çırpılması nəticəsində xəsarət aldılar. Dəhşətli mənzərə idi. Bizim qayıq dəmirlərə ilişdiyi üçün sağ qaldıq. Biz olan qayıqdan başqa birini də aşağı sallamışdılar. O qayıqda da olardı təxminən 30 nəfər. Onların qayığında gəminin yan alması üçün xüsusi yer var idi. Həmin yerə çırpıldı. Dalğalar o qədər hündür idi ki, hadisənin necə baş verdiyini anlaya bilmirdik. Hələ indiyə qədər elə dalğa görməmişdik. Deyirlər ki, axırıncı dəfə 1953-cü ildə dənizdə belə dalğa olub".

1971-ci il təvəllüdlü Mələhət Əliyeva necə xilas edildiklərini müxbirimizə belə anladıb: "İşimizi bitirib dincəlirdik. Nəsə qəribə səs eşitdim. Çölə çıxanda gördüm ki, hər tərəf tüstü içindədir. Hansı qapıya yaxınlaşırdıq alov vururdu üstümüzə. Birtəhər çıxıb, xilasedici formanı geyinib qayıqlara tərəf qaçdıq. Qayığa biz mindiyimizdə saat 18:00 radələri idi. Növbəti gün saat 14:00 radələrində gəlib bizi xilas etdilər. Xilasedicilər dalğalara görə qayığa yaxınlaşa bilmirdilər. Oradan sağ çıxmağımız özü bir möcüzədir".

Neftçiləri qayıqlara mindirən platformanın rəisi Allahverdi Məmmədov da müsavat.com müxbirinə baş verənlərdən danışıb: "Saat 17 radələrində platformadakı xətlərdən birində qəza yarandı. Birdən möhkəm səs eşitdik. Xətlər bir-birindən aralandı, alov püskürdü. Güclü şimal-qərb küləyi əsirdi, ona görə də yanğın çox qısa müddətdə bütün platformaya yayıldı. Tez işçiləri təxliyə etməyə başladım. İşçiləri qayıqlara mindirib bir qədər aşağı salladım ki, yanğından aralıda olaq. Özüm də sonda 26 nəfərin olduğu qayığa mindim. Orada 27 nəfər olduq. Digərlərindən xəbərim yoxdur. Çünki külək yanğını platformanın hər tərəfinə yayırdı. Hadisənin bu qədər faciəvi hal almasına səbəb dalğaların həddindən artıq güclü olması oldu. Bizim blokdakı müvafiq cihaz küləyin dərəcəsini saniyədə 35 metr göstərirdi".

***

Hadisədən bir gün sonra Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Fövqəladə Hallar Nazirliyi və Respublika Baş Prokurorluğu birgə məlumat yayıblar. Rəsmi qurumlarım məlumatında faciənin baş verməsinə səbəb güclü külək nəticəsində sualtı qaz borusunun dayaq xəttinin qırıldığı, nəticədə boru kəmərinin zədələnməsi ilə şiddətli yandığının baş verdiyi qeyd olunur. Rəsmi xəbərdə yanğının neft və qaz quyularına keçməsi də ehtimal olunur. Məlumatda o da bildirilir ki, faciə ilə bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər Üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 225.2-ci (Yanğın təhlükəsizliyi qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb və Baş Prokurorluq, Fövqəladə Hallar, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb.

Hadisə ilə bağlı Azərbaycan prezidentinin sərəncamı ilə Dövlət Komissiyası yaradılıb. Komissiyaya baş nazir Artur Razi-zadə başçılıq edir. Dövlət Komissiyası itkin düşənlərin axtarışı və xilasetmə işlərinin sürətləndirilməsini təmin etməli, hadisənin baş verməsi səbəblərini və şəraitini araşdıraraq onun nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirməli və həyata keçirməlidir. Eyni zamanda qəza nəticəsində zərər çəkmiş şəxslərə və həlak olanların ailə üzvlərinə maddi və digər zəruri yardım göstərilməsi, xəsarət alanların müalicəsinin təmin edilməsi, qəza nəticəsində Dərin Dəniz Özülünün yararlılıq vəziyyətinin və ona dəymiş zərərin müəyyənləşdirilməsi və görülmüş işlər barəsində Azərbaycan Prezidentinə mütəmadi məlumat vermək də tapşırılıb.

Prezidentin digər sərəncamı ilə dekabrın 6-da ölkədə bir günlük matəm elan olunub. Dövlət Bayraq Meydanında və digər rəsmi yerlərdə bayraqlar endirilib.

***

Faciə ilə bağlı dekabrın 6-da mətbuat konfransı keçirilib. SOCAR-ın vitse prezidenti Xaliq Məmmədov bildirib ki, Qazaxıstan, İran və Rusiyadan sularda olan neftçilərin tapılmasında kömək etmələri xahiş olunub. O,

Mətbuat konfransında çıxış edən fövqəladə hallar nazirinin müavini Etibar Mirzəyev bildirib ki, havanın küləkli olması xilas etmə işlərini çətinləşdirib. O, yatağın partladılmadığını və xilasetmə işlərinin davam etdirildiyini söyləyib.

SOCAR-ın vitse-prezidenti Xoşbəxt Yusifzadə Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın kömək təklifinə mətbuat konfransındakı çıxışı zamanı belə cavab verib: "Heç kimdən kömək istəməyəcəyik. Problemi öz qüvvəmizlə həll etmək imkanımız, yanğını söndürmək gücümüz var".

Qeyd edək ki, hadisə baş verən ilk gündən platformadakı işçilərin sayı ilə bağlı kəskin ziddiyyətlər meydana çıxdı. Belə ki, rəsmi məlumatda özüldə 63 nəfərin olduğu deyilsə də, faciə ilə bağlı ilk məlumatı yayan Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri Mirvari Qəhrəmanlı 80-dən çox neftçinin olması barədə xəbər yaydı. Dekabrın 5-də isə "Reuters" agentliyi platformada 84 nəfərin olduğu haqda məlumat verdi. SOCAR isə ilk məlumatında platformada 42 nəfərin olduğunu bildirdi.

Bütün bu ziddiyyətlər sosial şəbəkələrdə narazılıqla qarşılandı. Hazırda da rəqəmlər ətrafında müəmmalar davam edir. Sosial şəbəkələrdə əsas müzakirə mövzularından biri də "Günəşli" yatağındakı hadisədə təxribat olub-olmaması ilə bağlı fikirlərdir.

M.Qəhrəmanlı "Yeni Müsavat"a açıqlamasında rəqəmlər arasındakı ziddiyyətlərə belə aydınlıq gətirdi: "Rəsmi qurumların açıqlamalarına qədər verdiyim məlumatların hamısı doğru oldu. İnsanlar bizə etibar edirlər. Araşdırmalarımız davam edir. "28 May" Neft-Qaz Çıxarma İdarəsinin rəhbərliyi hadisə ilə bağlı cavab verməlidir. Aldığım məlumata görə, orada Tikinti Quraşdırma İdarəsinin işçiləri, qazmaçılar olub. 84 nəfərin olması barədə mənə məlumat verilib. Təəssüflər olsun ki, bu rəqəmi kiçildirlər. Verilən siyahı məni qane etmir. Mənə yazılan bir xəbərdə göstərilir ki, Bəhmən Cəfərovun cəsədinin tapılması barədə xəbər verilib. Mənə yazan şəxs bildirir ki, onun cəsədi tapılıbsa, ailəsinə niyə verilmir. 84 nəfərin olmamasını təsdiq edən fakt qoysunlar. Mən də istərəm bu qədər şəxs orada olmasın. Niyə hadisə baş verən platformanın ətrafında gəmi yoxdur? Bu sualı mənə neçə dəfə ünvanlayıblar. Neft Şirkəti bu suala cavab verməlidir. Hadisəyə səbəb qasırğa olub. Daxili təhlükəsizlik qaydalarına riayət olunmayıb. Aldığım məlumat belədir. Hadisədə təxribat izləri mümkünsüzdür. Çünki təxribatı işçi də edə bilərdi və öz həyatı təhlükəyə düşərdi. Kənardan bu mümkün deyil".

Politoloq Ərəstun Oruclu bildirdi ki, hadisənin təxribat olub-olmaması ilə bağlı ortada faktlar olmalıdır: "Son illərdə Bakıda ən güclü külək baş verdi. Hadisənin bu fonda baş verdiyi deyilir. Təxribat olmasını ehtimal etməyimizə əsas yoxdur. Dalğanın hündürlüyünün 10-12 metr olduğu bildirilir. Belə bir şəraitdə orada təxribat törətmək inandırıcı görünmür. Burada təbii hadisə var. Məsuliyyətsizlik də ola bilər. Olmayan bir şeyi gündəmə gətirməyə ehtiyac yoxdur. Azərbaycan Türkiyə ilə yaxınlaşır, belə hadisə baş verir. O demək deyil ki, hadisəni Rusiya təşkil edib. Bu cür versiyaların irəli sürülməsinə ehtiyatlı yanaşmağın tərəfdarıyam. Orada sübut yoxdur".

***

Faciə ilə bağlı Azərbaycan prezidentinin ünvanına başsağlığı mesajları gəlməkdədir. Türkiyə, Rusiya, Qazaxıstan, Gürcüstan və digər ölkələrin rəhbərləri İlham Əliyevə və ölənlərin yaxınlarına başsağlığı veriblər. Ölkəmizdə fəaliyyət göstərən Türkiyə, ABŞ və İran səfirləri də başsağlığı veriblər. Qardaş ölkənin səfirliyindən hər cür dəstəyi verməyə hazır olduqları bildirilib.

Ən son məlumata görə, qəzada itkin düşənlərin yaxınları SOCAR-ın Zığda yaradılmış operativ qərargahına toplaşıblar.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015

# “Günəşli” fəlakətindən sağ çıxanlar danışdı

## “Hələ indiyə qədər elə dalğa görməmişdik; deyirlər ki, axırıncı dəfə 1953-cü ildə dənizdə belə dalğa olub”

**Dekabrın 4-də saat 17:40 radələrində SOCAR-ın “Günəşli” yatağında faciə ilə nəticələnən güclü yanğın baş verib. Hadisə baş verən zaman özüldə 63 nəfər xidmətdə olub. Onlardan 32 (bəzi rəqəmlərdə 33) nəfərin xilas edildiyi bildirir. 1 nəfərin isə öldüyü rəsmən təsdiqlənib. Qalanlar itkin düşmüş sayılır. Lakin artıq hər kəs onların dənizdə həlak olması gerçəyi ilə barışıb. Xilas edilənlər 5 dekabr tarixində Mərkəzi Neftçilər Xəstəxanasına yerləşdirilib.**





Onların vəziyyətini öyrənmək və hadisənin necə baş verməsi ilə bağlı əlavə məlumat almaq üçün sözügedən xəstəxanaya yollandıq. Xəstəxanada bizi doktor Adil İsayev qarşıladı.

Adil İsayev musavat.com-a açıqlamasında bildirdi ki, qəbul edilən 31 xəstədən 22-sinə ilkin tibbi yardım göstərildikdən sonra ambulator müalicəyə buraxılıb:

“Hazırda 8 nəfər Mərkəzi Neftçilər Xəstəxanasında müalicə alır. Xəstələrin vəziyyəti stabildir. Onlar müxtəlif dərəcədə travma alıblar. Ağır vəziyyətdə olanı yoxdur. Xəstələr bütün müayinələrdən tam keçiblər və hazırda palatalardadırlar”.

Həkim həmçinin bildirdi ki, səhər saatlarında səhiyyə naziri Oqtay Şirəliyev də xəstələrə baş çəkib. O, hər bir xəstənin vəziyyəti ilə maraqlanaraq, palatalarında olub. Daha sonra həkim A.İsayevlə birlikdə hadisə zamanı xəsarət alan xəstələrin palatalarında olduq. Xəstələr bizimlə çətinliklə də olsa söhbət edib, hadisənin necə baş verməsini anlatdılar. Müxtəlif cür bədən xəsarəti alan neftçilərin hələ də hadisənin şokunda olduqları aydın görünürdü.

Hadisə zamanı iki qabırğasının sınığı və kəllə-beyin travması ilə xəstəxanaya qəbul edilən Mərdan Rəcəbov musavat.com-a aşağıdakıları danışdı:

“İşləyirdik, birdən bizə dedilər ki, təcili hər kəs xilasedici jileti geyinsin. Biz də tez geyindik. Sonra qayıqla bizi aşağı salladılar. Güclü külək var idi. Dalğaların hündürlüyü 10 metrə qədər idi. Bizim qayığı dalğa vurub dəmirlərin arasına saldı. Qayıqda 26 nəfər idik. Mənimlə birlikdə digər işçilər də məhz qayığın platformanın dəmirlərinə çırpılması nəticəsində xəsarət aldılar. Dəhşətli mənzərə idi. Bizim qayıq dəmirlərə ilişdiyi üçün sağ qaldıq. Biz olan qayıqdan başqa birini də aşağı sallamışdılar. O qayıqda da olardı təxminən 30 nəfər. Onların qayığı gəminin yan alması üçün xüsusi yer var idi. Həmin yerə çırpılıb. Dalğalar o qədər hündür idi ki, hadisənin necə baş verdiyini anlaya bilmirdik. Hələ indiyə qədər elə dalğa görməmişdik. Deyirlər ki, axırıncı dəfə 1953-cü ildə dənizdə belə dalğa olub”.

Xəstəxanada müalicə alan neftçilərdən birinin isə qadın olduğu bildirildi. Onunla da söhbət etmək qərarına gəldik. 1971-ci il təvəllüdlü Məlahət Əliyeva musavat.com-a necə xilas edildiklərini anlatdı:

“İşimizi bitirib dincəlirdik. Nəsə qəribə səs eşitdim. Çölə çıxanda gördüm ki, hər tərəf tüstü içərisindədir. Hansı qapıya yaxınlaşırdıq alov vururdu üstümüzə. Bir təhər çıxıb, xilasedici formanı geyinib qayıqlara tərəf qaçdıq. Qayığa biz mindiyimizdə saat 18 radələri idi. Növbəti gün saat 14 radələrində gəlib bizi xilas etdilər. Xilasedicilər dalğalara görə qayığa yaxınlaşa bilmirdilər. Oradan sağ çıxmağımız özü bir möcüzədir”.

Xəstəxanada olduğumuz zaman platformanın rəisi Allahverdi Məmmədovun da müalicə aldığı palatada olduq. Öyrəndik ki, neftçiləri qayıqlara A.Məmmədov mindirib. Sonda özü də 26 nəfərin olduğu qayığa minib. Hadisə zamanı o da xəsarət alıb. Hazırda vəziyyəti stabildir. Platforma rəisi baş verənləri musavat.com-a bu cür anlatdı:

“Saat 17 radələrində platformadakı xətlərdən birində qəza yarandı. Çöldə müəyyən işlərimiz vardı, onları görürdük. Birdən möhkəm səs eşitdik. Xətlər bir-birindən aralandı, alov püskürdü. Güclü şimal-qərb küləyi əsirdi, ona görə də yanğın çox qısa müddətdə bütün platformaya yayıldı. Tez işçiləri təxliyə etməyə başladım. İşçiləri qayıqlara mindirib bir qədər aşağı salladım ki, yanğından aralıda olaq. Özüm də sonda 26 nəfərin olduğu qayığa mindim. Orada 27 nəfər olduq. Digərlərindən xəbərim yoxdur. Çünki külək yanğını platformanın hər tərəfinə yayırdı. Hadisənin bu qədər faciəvi hal almasına səbəb dalğaların həddindən artıq güclü olması oldu. Bizim blokdakı müvafiq cihaz küləyin dərəcəsini saniyədə 35 metr göstərirdi”.

**“Çölə çıxanda gördüm ki, hər tərəf tüstü içərisindədir; hansı qapıya yaxınlaşırdıq alov vururdu üstümüzə. Bir təhər çıxıb, xilasedici formanı geyinib qayıqlara tərəf qaçdıq”**

Xəstəxanada olduğumuz zamanı xəsarət alanların yaxınları ilə də söhbət etdik. Onlar da çox narahat görünürdülər. Xəstələrlə görüş vaxtı olmadığı üçün xəstə yaxınları içəri buraxılmırdı. Həkimlər bildirdilər ki, 5 dekabrda xəstələr xəstəxanaya gətirilən zaman burada onların yaxınları olduqca təlaşlı halda olublar. Hətta yaxınını xəstələrin içində görməyən bir şəxs, SOCAR-a aid avtobusun şüşələrini də yumruq zərbəsi ilə sındırıb.

Qeyd edək ki, prezident İlham Əliyev 6 dekabrda SOCAR şirkətinə məxsus dəniz özülündə ölənlərin xatirəsinə Azərbaycanda bir günlük matəm elan edib.

❑ **Əli RAİS**

# Əcnəbi neft mütəxəssisi “Günəşli”dəki dəhşətli durumu anlatdı - “Qəzadan qaçmaq olardı, əgər...”

## Xarici şirkət qasırğa səbəbilə 1 gün qabaq işçilərini sahilə göndəribmiş; faciə yerli şirkətin təhlükəsizlik tədbirlərinin xarici şirkətlərlə müqayisəyəgəlməz olduğunu üzə çıxarıb...



**Dekabrın 4-də “Günəşli” yatağında faciə ilə nəticələnən güclü yanğın bir sualı gündəmə gətirib: belə bir dəhşətli olaydan yayınmaq mümkün idimi? Bu və digər suallarla Xəzərin Azərbaycan sektorunda çalışan xarici şirkətlərdən birinin mütəxəssisi ilə söhbətləşdik. Mütəxəssisin anlatdıqları onu deməyə əsas verir ki, yerli şirkətin tətbiq etdiyi texniki-təhlükəsizlik tədbirləri sıfır səviyyəsindədir:**

- Platformada adi bir qığılcım orada partlayışın yaranmasına səbəb ola bilər. Yüksək təzyiqli qaz elektrik “şit”indəki xırda bir qığılcımdan partlayışa səbəb olur. Kifayət edir ki, orada partlayış, ardınca da güclü yanğın olsun. “Günəşli”də yanğının qaz sızmasının “şit”dəki qığılcımdan alovlanması ehtimalı böyükdür.

***- Platformada sızma varsa, avtomatik bütün sistemdə iş dayanmır?***

- Xarici şirkətlərin istismar etdiyi platformalarda təhülkəsizlik sistemi həmin qaydadadır. Əgər elementar bir sızma olsa, dərhal bütün sistemdə iş dayanır. Elektrik cərəyanının verilməsi kəsilir. Bunu ona görə edirlər ki, sızma zamanı çıxan qaz elektrikdən yarana bilən mümkün qığılcım alışıb partlayışa çevrilməsin. Ümumiyyətlə xarici şirkətlərin istismarında olan platformalarda hər hansı bir xırda nasazlıq dərhal quyudan çıxarılan neft-qazın dayandırılmasına səbəb olub. Bir düymədir, sıxılır, quyunun ağzı bağlanır, neftin-qazın verilməsi dayandırılır.

***- Xilasetmə məsələləri necə tənzimlənir?***

- Yerli şirkətdə xilasetmə məsələləri Xəzərdə işləyən xarici şirkətlərin xilasetmə standartları ilə müqayisə oluna bilməz. Yerli şirkətin platformalarındakı sahələrdə xilasetmə jiletləri yoxdur. Jiletlər ancaq otaqlardadır. Belə fövqəladə hal olanda neftçinin otağa getməsi çətinləşir, hətta mümkünsüz olur. Necə ki, olub. Platformada yanğın başlayanda neftçilər otaqlara gedə bilməyiblər. Qaçıb platformanın bir kənarında dayanıblar. Çünki partlayışdan sonra əmələ gələn yanğın buna imkan verməyib. Yanğın zamanı dəhşətli alovu, alovun istisini külək neftçilərin üstünə vurub. Neftçilər 2 “şlyubka”ya oturublar. “Şlyubka”lardan biri 10 metr aşağı salladılıb. Orada 30 nəfər sağ qalıb. O biri “şlyubka” isə platformadan dənizə doğru 10 metrdən də aşağı buraxılıb və dənizdə 11 metrə çatan ləpələr “şlyubka”ya çırpılmağa başlayıb, “şlyubka”nı oynadıb, platformaya çırpmağa başlayıb. “Şlyubka” platformanın dəmir əsasına o qədər çırpılıb ki, iki yerə bölünüb. İçində olan neftçilər də suya tökülüb. Orada kimsə sağ qalsa, Allahın möcüzəsi olar.

***- Platformanın durumu necə olub? Yəni köhnəlmiş, əldən düşmüş platformadır, yoxsa yenilənmiş, təmir edilmiş olub?***

- Köhnə platformadır. Orada müasir təhlükəsizlik sistemlərindən söhbət belə gedə bilməz. Orada sovet dövründən qalma, müasir təhlükəsizlik standartlarına cavab verməyən təhlükəsizlik sistemi vardı. Belə bir qasırğa da illərdir ki, baş verməyib. Üstəlik qasırğa səbəbindən xilasetmə gəmiləri də platformaya yaxınlaşa bilməyib. Yaxınlaşsaydılar, 11 metr dalğa həmin gəmiləri də platformaya çırpıb 2 yerə bölərdi. On illərdir ki, dənizdə belə qasırğa olmurdu. Ən böyük dalğa 6 metrdən bir qədər artıq, 6 metr yarım olurdu. 11 metr dalğa dəhşətli dağıdıcı gücə malikdir. İstənilən halda təhlükəsizlik tədbirləri planlaşdırılanda bu məsələlər nəzərə alınmalı idi.

***- Havanın kəskin dəyişəcəyi ilə bağlı xəbərdarlıqlar vardı. Yəni küləyin həmişə olduğundan daha artıq olacağı, müvafiq olaraq dalğaların da daha güclü olacağı da, yəqin ki, proqnozlaşdırılmışdı...***

- Bütün neft platformalarına hava şəraiti ilə bağlı məlumatlar mütəmadi verilir, xəbərdarlıqlar olunur. 1 gün əvvəldən də bilinirdi ki, qasırğa olacaq. Xarici platformalarda çalışanlar, belə deyək də, ehtiyat işçiləri sahilə çaxarmışdlar.

***- Yəni bunu baş verə biləcək hər hansı bir xoşagəlməz olayın, qəzanın qarşısını almaq, belə bir hal olarsa, itkiləri minimuma salmaq üçün etmişdilər?***

- İşçilər var ki, onları sahilə qaytarıb geri çağırmaq vaxt aparır. Ona görə də neftçilər üçün gəmi-otellər var. İşçiləri orada qalırlar. Yəni həmin işçilər platformada qala bilməzlər. Çünki orada yer yoxdur. Həm də “çp” olsa, xilasetmə “şlyubka”larında yerləşə, platformadan uzaqlaşa bilməzlər. Bu hadisədən 1 gün əvvəl “Çıraq” yatağındakı ingilislər “Qurban Abbasov” gəmi-otelindəki 300-ə yaxın işçini sahilə göndərdilər. Növbəti gün - faciə olan gün külək o qədər güclü olmuşdu ki, gəmi-otelin 3 “lebedka”sı (gəminin platformaya bağlandığı “tros”lar- E.M) qırılmışdı. Əvvəldən bilinirdi ki, güclü qasırğa olacaq, dalğa həmişəkindən daha yüksək, daha güclü olacaq. Bu gün Xəzərin Azərbaycana aid hissəsində xarici şirkətlərin işlətdiyi 7 platforma var. Həmin platformalarda ən son təhlükəsizlik sistemləri quraşdırılıb. Yəni platformada hər hansı bir ştatdankənar situasiya olsa, dərhal bütün sistem dayanır. Hər bir kəsin həyatının xilası üçün təcili tədbirlər görülür. Yerli şirkətin işlətdiyi platformaların əksəriyyəti köhnədir, xarici şirkətlərin tətbiq etdiyi təhlükəsizlik sistemi demək olar ki, heç birində o dərəcədə quraşdırlmayıb, işlək deyil. Neftçilərimiz orada Allahın ümidinə işləyirlər.

***- Xarici şirkətlərin işlətdiyi platformalarda təhlükəsizlik tədbirləri gücləndirilmişdi?***

- Orada təhlükəsizlik tədbirləri həmişə güclü olur. Sadəcə, əlavə addımlar atılmışdı. Platformada qəza baş verirsə, hər saniyənin rolu var. İşçi otağa gedib orada jileti götürüncə çox gec olar. Dənizdə həmişə külək var və xırda bir yanğın meydana gəlirsə, dərhal böyük bir yanğına çevrilir. Yanan platforma maksimum 40 metr eni, 50 metr uzunu var. İşçi güclü küləkdə platformanın bu başından o başına gedincə vaxt gedir.

***- Dəhşətli qəzanın qarşısını almaq olardı?***

- Əlbəttə, olardı. Vaxtında təhlükəsizlik tədbirlərini müasir standartlara uyğunlaşdırsaydılar, platformadakı korroziyaya uğrayan dərinlik borularını yeniləri ilə əvəzləsəydilər, bu qədər adam itkin düşməzdi. Allah hər birinin köməyi olsun. Amma oradan kiminsə sağ çıxacağına inanmıram. Allah onların yaxınlarına səbir versin.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015

# Cahangir Hacıyev həbsdə - növbə Eldar Mahmudova çatdı

## Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri anasının 40 mərasimindən sonra hamı ilə sağollaşaraq məhkəməyə gedib; böyük ehtimalla, sabiq MTN şefinin həbsi barədə də yaxın günlərdə qərar veriləcək...

**Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev 9 ay sonra qandallandı. Mart ayının 18-də "səhhətində problemlərə" görə istefaya göndərildikdən sonra maliyyə xəyanətlərində suçlanan C.Hacıyev dekabrın 4-də saxlanılıb. Belə ki, DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində dindirməyə çağırıblar və buradan da Nərimanov Rayon Məhkəməsinə aparıblar.**

Sabiq bankir barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib. O, Cinayət Məcəlləsinin 178.3.2 - dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə və 179.3.2 - külli miqdarda mənimsəmə maddələri ilə ittiham edilir. Sabiq bank rəhbəri səlahiyyətlərindən sui-istifadə edərək, dövlət pulunun talan edilməsində, müvafiq sənədlər olmadan yaxın ətrafına milyonlarla dollar məbləğində kreditlər ayırmaqda, mənimsəmə və israfçılıqda, özünə yaxın oliqarxların "çirkli pullar"ının yuyulmasında və digər cinayətlərdə ittiham olunur. C.Hacıyev barədə həbs sanksiyasını şəxsın baş prokuror Zakir Qaralovun imzaladığı deyilir.

Mart ayından üzü bəri Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində Beynəlxalq Banka borclu olan 3 minə yaxın iş adamı dindirilib, 70-dək adam haqda həbs qətimkan tədbiri seçilib, sonradan onların bəziləri azadlığa buraxılsa da, bir çoxunun ölkədən çıxmaq yasağı var. Onlardan hələ aylar öncə zəruri ifadələr alınıb ki, bu ifadələr C.Hacıyevin həbsi üçün tam yetərli idi. Beynəlxalq Bankdan götürülən və mənimsənilən kreditin məbləğinin 6-8 milyard manat olduğu deyilir. Bəzi mənbələrdə isə bunun 10 milyarda qədər çatdığı vurğulanır. İndiyədək ödənilən məbləğ isə qeyr-rəsmi məlumata görə, bu pulun yalnız iki-üç faizindən çox deyil.

"Beynəlxalq Bank işi"nə görə həbs edilənlər sırasında neft oliqarxı, "PNN Group"un təsisçisi, Azərbaycanda "KFC" restoranlar şəbəkəsinin qurucusu Nizami Piriyev, "Globus Plaza"nın sahibi, "Avesta" Konserninin prezidenti Hacı İbrahim Nehrəmli, eks-deputat Dünyamin Xəlilov və digərləri vardı. Adları çəkilən və digər saxlanılan iş adamlarından 43-ü sonradan borcunun bir qismini qaytardığına görə sərbəst buraxılmışdı.

Həbs edilənlər sırasında bankın mərkəz filialının keçmiş direktoru İlqar Abdullayev, bankın Nəqliyyat filialının keçmiş direktoru Kənan Orucov, Beynəlxalq Bankın inzibati binalarının mühafizəsini həyata keçirən "İnter Security" MMC-nin baş direktoru İbrahim Hüseynov, bankın Dubay filialının rəhbəri Adil Hüseynovun adları var. "Azərinşaatservis" MMC Müşahidə Şurasının sədri Arif Həsənov, "Azərinşaatservis"


Cahangir Hacıyev


Eldar Mahmudov

MMC-nin təsisçisi olduğu "Trek İnvest" SC-nin direktor əvəzi Əli Əlişov, "İnter Glass" ASC-nin direktoru Fariz Muradov kimi iş adamları da neçə aydır ki, həbsdədirlər.

Cahangir Hacıyevin istintaqa cəlb olunduğu barədə xəbərlər hələ yay aylarından vardı. Bildirilirdi ki, sabiq bankir ev dustağı edilib və ölkədən çıxmaq yasağı qoyulub. Onun həbs edilməməsinin səbəbləri sırasında milli təhlükəsizlik naziri Eldar Mahmudovla qohumluğu da vardı. Bildirilirdi ki, qudası sabiq bankirin həbs edilməməsi üçün hakimiyyətdən rica edib və söz verib ki, mənimsənilən pullar son manatınacan qaytarılacaq.

Hələ o zaman belə ehtimallar vardı ki, "maliyyə xəyanətləri"ndə E.Mahmudovun da əli var. Oktyabr ayının 17-də Eldar Mahmudovun "vurulması" ilə başlayan "MTN işi" əslində Beynəlxalq Bank qalmaqalının davamı idi. Məlum oldu ki, MTN-də baş vermiş cinayətlər, sahibkarların soyulması prosesi bir çox hallarda Beynəlxalq Bank vasitəsilə həyata keçirilib, bütün parası alınan iş adamına "kredit sənədi" imzaladıb, pullar isə mənimsənib. O cümlədən fevralda baş verən devalvasiyada da qudalar əlbir olub milyonlar qazanıblar. Belə ki, devalvasiya olacağı haqda əvvəldən xəbərdar olan Eldar Mahmudov Cahangir Hacıyevin vasitəsilə köhnə tarixlə valyuta mübadiləsi həyata keçiriblər. Qudalar bu əməliyyatda böyük məbləğdə manatı köhnə tarixlə, yəni devalvasiyadan əvvəlki valyuta kursu ilə mübadilə edib. E.Mahmudovla C.Hacıyev isə bu yolla milyonlarla dollar irəli düşüblər.

Mötəbər mənbədən "Yeni Müsavat"a verilən xəbərə görə, E.Mahmudovun ifşasından sonra C.Hacıyevi oktyabrın sonunda həbs etməklə bağlı qərar verilib. Amma C.Hacıyevin anasının oktyabrın 24-də vəfat etməsi bu qərarı ertələyib. Hüquq-mühafizə orqanları ilə razılaşdırılıb ki, C.Hacıyev anasının 40 mərasimdən sonra həbs edilsin. Dekabrın 3-də C.Hacıyev övlad kimi borcunu yerinə yetirib və dekabrın 4-də axşam bütün yaxınları ilə vidalaşaraq Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə gedib. Cahangir Hacıyev məhkəmədən də dərhal Kürdəxanıdakı 1 saylı İstintaq Təcridxanasına etap olunub. Onun iki vəkillə müqavilə bağladığı da deyilir, amma onların adları hələ ki açıqlamır.

Qaynağımız deyib ki, sabiq bankirin guya xüsusi əməliyyat nəticəsində həbs edilməsi barədə xəbərlər gerçəyi əks etdirmir. "Cahangir Hacıyev təcridxanaya bütün hazırlıqları ilə gedib. Elə həmin gecə onu üç adamlıq kameraya salıblar. Yanındakılar Beynəlxalq Bank işi ilə əlaqəli həbs edilənlər deyil", - deyə, mənbəmiz bildirib.

***

C.Hacıyevin həbsi Eldar Mahmudovun da həbsin bir addımlığında olduğunu göstərir. Sabiq nazirin MTN-dəki və digər strukturlardakı ən yaxın adamlarının həbsindən sonra E.Mahmudovla bağlı təkzibolunmaz sübutlar toplanıb. Bu günə kimi Eldar Mahmudovun komandasına daxil olan, ölkə əhəmiyyətli bir qurumda yüksək postlar tutan 20-dən çox şəxs həbs olunub. Təxminən bu qədər "mahmudovçu" da dəmir barmaqlıqlar arxasına göndərilib. Məlumata görə, E.Mahmudova məhz sahibkarlardan qanunsuz xərac toplaması ittihamı veriləcək. Sabiq nazirin Xüsusi Dövlət Mühafizə İdarəsi əməkdaşlarının ciddi nəzarəti altında olduğu dəqiqdir. E.Mahmudov oktyabrın sonunda Badamdardakı villasından çıxarılıb və Bakı ətrafındakı dövlət bağlarından birində saxlanılır. Onun yanında yalnız xanımı qalır və onun da bayıra çıxmadığı iddia olunur. E.Mahmudov barədə ev dustaqlığı qərarı verilib. Böyük ehtimalla sabiq nazirin həbsi barədə sanksiyanı da C.Hacıyevdə olduğu kimi baş prokuror imzalayacaq.

❑ "Yeni Müsavat"

# Dəniz fırtınası və dalğalar qoynundakı binəsiblər



**Xalid KAZIMLI**

**Rəhmətlik yazıçımız Manaf Süleymanovun (1912-2011) "Fırtına" və "Dalğalar qoynunda" adlı iki romanı var, ikisini də 50-55 il bundan əvvəl yazıb.**

Bu əsərlərdə söhbət dənizdə çalışan neftçilərin gərgin, məşəqqətli əməyindən, təlatümlü Xəzərin azman dalğaları ilə çarpışa-çarpışa neft hasil edən insanların mübarizəsindən, təhlükələrə məruz qalmasından gedir.

Xüsusilə "Fırtına" əsərində neftçilərin dalğalı dənizdə dəfələrlə ölüm təhlükəsilə üzbəüz qalmaları realistcəsinə təsvir olunub. Yazıçı özü ixtisasca geoloq-mühəndis olduğundan bu işləri yaxşı bilirdi.

O əsərləri 33-35 il əvvəl oxumuşam, personajlar, dialoqlar yadımda qalmayıb, ancaq neftçilərin şimal küləyinin təsiri ilə qudurmuş dənizdə ölüm-qalım savaşı vermələrini əks etdirən epizodlar yadımdadır.

Srağagün "Günəşli" neft yatağınının 10-cu platformasında Xəzərdəki fırtına üzündən baş verən faciəvi qəzadan xəbər tutanda yadıma "Fırtına" düşdü.

Dünən dənizdə qeyb olan zəhmətkeşlərin siyahısına, təvəllüdlərinə baxıram: 1961, 1966, 1969, 1971, 1975, 1979 və s.

Demək ki, Manaf Süleymanov dənizdə neft çıxarmağın necə təhlükəli bir iş olduğunu yazanda bu şəxslər hələ anadan olmayıbmış.

Bəlkə də onların çoxu barələrində bu cür romanın yazıldığından xəbərsiz idilər. Belə romanların mövcudluğunu sovet dövrünün neftçiləri bilərdilər. O vaxt müəssisələrin qırmız guşələrində, kitabxanalarında bu kitablar mühəqqəq olardı.

Budur, indi dənizdə faciə ilə üzləşən zavallı insanların öz həyatı xəbər, məqalə, oçerk, roman mövzusu oldu.

Çünki elmi-texniki tərəqqinin bunca inkişaf etdiyi bir vaxtda yenə də, eynilə 55-60 il qabaq olduğu kimi qurbansız ötüşmək mümkün olmadı, dəniz onları uddu.

Təsəvvür edin, Marsa aparat göndərib şəkil çəkən insan hələ də təbiəti ram edə bilmir, onun zaman-zaman oyanan dağıdıcı gücünün qarşısında aciz qalır.

Belə vəziyyətlərdə adətən faciənin baş verməsi üç faktorla bağlı olur: təbii fəlakət, texnogen qəza, terror aktı.

İlkin informasiyalar göstərir ki, "Günəşli" yatağındakı faciə təbii fəlakətin yaratdığı texnogen qəza nəticəsində baş verib.

Ancaq komplo nəzəriyyələri sevən, hər işdə mütləq "dünyanı fırladan dairələrin uzun barmağı"nı axtaran və "tapan" adamlar bu faciədə də eyni təşəbbüsü göstərirlər və ortaya fantastik ehtimallar atırlar.

Bircə şeyi düşünək ki, o cür fırtına, qasırğa zamanı təlim görmüş xilasedicilərin belə platformaya yaxın düşə bilmədiyi durumda diversantlar heç kəsin gözünə görünmədən, obyektə heç bir xüsusi texnika cəlb etmədən necə təxribat törədə bilərdilər?

Bu qorxunc təbiət hadisəsinin əsəridir. Bəs Xəzərin xasiyyətini bilə-bilə fırtınaların içində, dalğaların qoynunda iş görən, milyardlar qazanan dövlət təhlükəsizlik texnikası baxımından bütün işləri görübmü? Harada yanlışlıqlara yol verilib? Faciədən yayınmaq mümkün idimi?

Bu suallara texniki araşdırmalar nəticəsində cavab vermək olar.

Ölkə insanlarının isə nə araşdırma aparanlara, nə təhqiqatın nəticələrini elan edənlərə güvəni yoxdur. Təsadüfi deyil ki, hər kəs bu cür böyük faciəvi hadisəyə görə hansısa kiçik ranqlı adamların - mühəndisin, briqadirin cəzalandırılacağını gözləyir.

Bundan əvvəl dəfələrlə elə olub. Milyonları dartıb-dağıdanlar qıraqda qalır, haqq-hesab zamanı ən aşağı vəzifəli adamların yaxasından yapışırlar. Sanki hər şeyə cavabdeh odur. Məsuliyyət daşıyan baiskar böyüklər bir-birini ayağa vermirlər, su boğazlarına çıxanda ayaqlarının altına kiçikləri qoyurlar.

Elə faciə baş verən gün də elə olub. "Titanik" filmindəki gəminin batmasını, insanların təlaş içində xilas olmağa çalışmalarını göstərən epizodlardakı kimi can hövlü yaşanıb, ancaq nə faydası, suya tökülən binəsib fəhlələr olub.

Norveçlilər də neftin bir hissəsini bu cür çıxarırlar. Barens dənizi Xəzərdən də dəlidir, baxaq görək, orda bu cür faciələr baş verirmi? Olsaydı, yazardılar, bilərdik. Necə ki buzların arasında qalan balinaları çəkib göstərirlər, bunu da edərdilər. O bizimkilərdir, faciə baş verəndə panikaya düşür, informasiya yaymır, bir müddət həqiqətləri təkzib etməklə məşğul olur, sonra da malalaya-malalaya faciənin miqyasından danışırlar.

Bu dənizdə fırtına həmişə olub, həmişə də olacaq. Əsas məsələ fırtınalara qurban verməməkdir. Onu da hələ bacarmırıq.

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015



# "Günəşli" qurbanları

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**"Günəşli"dəki fəlakətin miqyası o qədər böyük oldu ki, Nardarandakı itkilərimizi də arxa plana keçdi. Xəzərdə də az itkilər verməmişik. Üzə bilməyib batanlar, balıq ardınca gedənlər... Ancaq 6 dekabr faciəsi miqyasına görə bənzərsizdir - 30-dan çox itki!**

Böyük dərddir. Bu dərd təkcə Xəzərdəki qurbanların ailəsinin deyil, hamımızındır, bütün Azərbaycanındır. Çəkməliyik, ağrısını-acısını yaşamalıyıq, bölüşməliyik. Əgər neftin, qazın bəhrəsini bərabər görürüksə, deməli, onun gətirdiyi bəlaları, bizə verdiyi faciələri də birgə yaşamalıyıq.

"Günəşli" qurbanları təkcə ailəsinə çörək qazanmaq üçün bunca təhlükəli işdə çalışmırdılar. Onlar həm də Azərbaycan adına çalışırdılar, gecəli-gündüzlü, fırtınalı dənizin ortasında gərgin işləyirdilər. Hətta xaricilərə onlardan daha çox əmək haqqı verilməsindən şikayətləndikləri də olurdu. Fərqinə varmırdıq ki, Azərbaycanın dünyada önə çəkilməsində, böyük gəlirlər əldə etməsində əli qabarlı neftçilərin mühüm rolu var. 22-62 yaşlarında 30 neftçiyə vaxtında qiymət verə bilmədik...

Bəli, faciələrdən heç kəs sığortalanmayıb. Amma əgər 1984-cü ildə istismara verilən platformada faciə məhz köhnə borunun qırılması nəticəsində baş veribsə, təhlükəsizlik tədbirlərinə əməl olunmayıbsa, bu, bağışlanmaz haldır. Küləyin sürətinin saniyədə 35-40 metr olması heç kəsə özünə bəraət qazandırmaq imkanı vermir. Hər kəs bilir ki, Xəzər fırtınalı dənizdir və istənilən zaman istənilən hadisə ola bilər.

Musavat.com 3 dekabr 23.02-də dənizdə gəmiçi işləyən şəxsə istinadən xəbərdarlıq etmişdi. Sitat: "Hazırda dənizdə dəhşətli qasırğa var. Dalğalar gəmini atıb-tutur. Gəmi kapitanı bizə bildirib ki, ailələrinizə zəng edib məlumat verin". Ekologiya və Təbii Sərvətlər Nazirliyi də qeyri-sabit hava ilə bağlı xəbərdarlığını etmişdi.

Deməli, qarşıdakı günlərdə ciddi təhlükəsizlik tədbirlərini görmək, lap neftçiləri vertolyotla evlərinə daşımaq, onları otel gəmilərə yığıb dənizdə saxlamaq olardı. Bir platformada 63 nəfəri ölümlə üzbəüz saxlamağın mənası nə idi? Bir-iki gün qazıntı işləri dayandırılsaydı, dünya dağılmazdı. Necə oldu ki, həmin qasırğada bir nəfər əcnəbinin burnu qanamadı, onların həyatı qiymətlidir, ona görəmi?

"Hər dəfə vertolyotdan düşəndə briqadamızın işçiləri bir ağızdan "düşün uşaqlar, yenə bu xarabaya gəldik" deyərdilər... Ustalar həmişə gecə vaxtı uzaqdan "Azəri", "Çıraq" platformalarındakı şəraitdən və işçilərin rahatlığından danışardı".

Bunu "Günəşli" platformasının keçmiş işçisi Coşğun Kərimov facebookda yazıb. Şübhəsiz ki, məsul şəxslər də vəziyyətdən hali olub. "Günəşli" niyə gözdən-könüldən iraq düşüb, ingilislər işləmədiyi üçün?

Bundan əvvəl "Neft Daşları"nda bənzər faciə olmuşdu, üstündən yarım əsrdən çox keçib - 21 noyabr 1957-ci ildə. O vaxt qasırğa sütunları aşırmış, 21 neftçi həlak olmuşdu. Həmin vaxt insanları xilas etmək texniki problemlərdən mümkün olmamışdı, "Neft Daşları" cəmi 8 il idi ki, tikilmişdi.

Ancaq bu gün biz kosmosa üçüncü peykimizi buraxmağa hazırlaşırıq, niyə vaxtında evakuasiya tədbirləri görülməyib sualına cavab verilməlidir. Şahidlər deyir ki, 30-dan çox neftçinin olduğu qayıq saatlarla platformanın kənarında asılı qalıb. Niyə onların köməyinə vaxtında yetişməyiblər?

***

Hadisədə təxribat izi axtaranlara rəsmi reaksiya verilib. Ancaq tam təkzib də deyil. "Təxribat olarsa, platformaya nəsə qoyardılar... Amma nə bilim, hər şey ola bilər. Komissiyanın tərkibində MTN var, yəqin ki, onlar bunu araşdırıb tapacaqlar"- Azərbaycan Dövlət Neft Şirkətinin 1-ci vitse-prezidenti Xoşbəxt Yusifzadə deyib.

Təbii ki, prezident sərəncamı ilə yaradılmış komissiya son sözü deyəcək. Ancaq şübhələr kifayət qədərdir. Bu hadisənin baş verdiyi gün olanları xatırlayaq: Türkiyənin Baş naziri Əhməd Davudoğlu Bakıda çox mühüm görüşlər keçirtdi, ciddi mesajlar verdi; Azərbaycan rəhbərliyi Türkiyə ilə bir yerdə olduğunu növbəti dəfə bəyan etdi; Ankara Rusiya qazının alternativlərindən biri olaraq Azərbaycan qazını nişan verdi və...

Davudoğlu geri dönən saatlarda "Günəşli" alışdıE Günahkar sadəcə, təbiətdirmi? Demək çətindir. Ancaq Rusiya Xəzərdən Suriyanı vuranda təhlükənin qapımızı kəsdirdiyini çoxları deyirdi. Bakı, neft yataqlarımız hədəf ola bilər, yazmışdıq. 4 dekabrda Rusiyanın Xəzər Donanması Həştərxanda "S-400" zenit-raket sistemini sınaqdan keçirmişdi. Üstəlik, həmin gün parlament dini ekstremizmə qarşı mübarizənin sərtləşdirilməsinə də qərar vermişdi...

# Müxalifətin Nardaran olaylarına çəkingən münasibətinin səbəbi bilindi

**Nardaranda son 10 gündə yaşanan hadisələrə münasibətdə müxalifət düşərgəsinin ehtiyatlı, çəkingən davranışı müşahidə olundu. 2002-ci ildə də Nardaranda insan itkisi ilə nəticələnən hadisələr yaşanmışdı.**

## Pənah Hüseyn: "Demokratik düşərgə hadisəyə əsassız olaraq cəlb edilməsindən ehtiyatlanıb..."



O zaman kənd əhalisinin bir hissəsi İmam Hüseyn meydanı adlandırdıqları meydanda 8 aya yaxın etiraz aksiyası keçirmişdilər. O zaman müxalifət düşərgəsi Nardaran hadisələrinə indikindən fərqli münasibət ortaya qoyurdu. Müxalifət Nardaran camaatını açıq şəkildə müdafiə edirdi. Bəzi siyasi liderlər meydanda qurulan çadıra gedib əhali ilə görüşürdülər. Bu dəfə isə müxalifət Nardaran məsələsinə münasibətdə sanki bir qədər ehtiyatlı, çəkingən davranış nümayiş etdirdi. Bəs, müxalifətin ehtiyatlı, çəkingən davranışı nə ilə bağlı oldu?

Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bildirdi ki, bu davranış demokratik düşərgə deyilən kəsimin hadisələri dövlətçilik və hüquq müstəvisində görməsinin bir sübutu kimi səslənməlidir. Çünki istənilən halda hansı səbəblərdən olur-olsun, səlahiyyətli hüquq-mühafizə orqanlarına qarşı silah işlədilməsi və silahlı müqavimət olubsa, yolverilməzdir: "Düzdür, hazırda istintaq davam edir. Bu hadisənin təxribat olub-olmaması, necə olması hər halda aydınlaşdırılır. Amma hər halda ümumi bu günə olan qavrayış ondan ibarətdir ki, bir müqavimət olub. Bunun hansı məqsədə, kimlər tərəfindən edilməsi, təxribat olub-olmaması, xarici mənbələrlə bağlı olub-olmaması araşdırılmalıdır. Əlbəttə ki, bütün bu məsələlərin tam aydın olmaması hadisələrə münasibətdə ciddi ehtiyatlılıq tələb edirdi. İkincisi, demokratik düşərgə, xüsusən siyasi müxalifət bu hadisəyə əsassız olaraq cəlb edilməsindən ehtiyatlanıb. Bu da açıq-aydın görünür. Bu məsələ də öz təsirini göstərdi. Nardaran və nardaranlılar Azərbaycan cəmiyyətinin özünəməxsus rənglərindən biridir. Amma Azərbaycanın gələcəyini Azərbaycan cəmiyyətinin əksəriyyəti görür, fərqli düşünür və fərqli perspektivlərdə axtarır. Siyasi müxalifətin davranışına hər halda bu amilin də təsiri olmamış deyil".

P.Hüseyn onu da dedi ki, bəzi telekanallarda və KİV-lərdə Nardaran hadisələrindən istifadə edərək cəmiyyət daxilində barışmazlıq, ayrı-seçkilik mühiti aşılanması müşahidə olunur: "Mən bunu da yolverilməz hesab edirəm".

❑ Etibar SEYİDAĞA

# "İlham Əliyevə dəstək verək, korrupsionerləri daha arxayın təmizləsin"

## Hafiz Hacıyev: "Prezident əmin olsa ki, ona müxalifət tərəfindən arxadan zərbə vurulmayacaq, başlatdığı işi axıra çatdıracaq"

**"Azərbaycan müxalifətinin sağlam qüvvələri ölkə prezidentinin son aylarda başlatdığı islahatlar istiqamətində addımları müdafiə edir. Həmin qüvvələrin sırasında bir çoxu hələ ki, bu mövqelərini açıq şəkildə bəyan etməsələr də, mən dəqiq bilirəm ki, onlar islahatları dəstəkləyirlər".**



Bu barədə "Yeni Müsavat"a açıqlamasında Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev bildirib. Hafiz Hacıyev sonra bildirib ki, Azərbaycanın sağlam müxalifət partiyalarının bir araya gələrək bir hərəkat şəklində birləşməsinə və prezident İlham Əliyevə başlatdığı islahatlar istiqamətində dəstək verməsinə ehtiyac var. Müxalifətin dəstəyinin ortaya qoyulması ölkədə başlanan islahatların daha sürətli getməsinə, cinayətə bulaşmış məmurlara qarşı prezidentin həyata keçirdiyi təmizləmə prosesinin daha asan və səmərəli olmasına öz müsbət təsirini göstərə bilər: "Ölkədə başlanan kadr islahatları, kadr dəyişiklikləri, təmizləmələr, islahatlar hakimiyyətin daxilindəki bir sıra qüvvələrin, həmçinin bəzi xarici qüvvələrin çox böyük müqaviməti ilə qarşılaşır. Ona görə də müxalifətin sağlam qüvvələri olaraq biz cənab İlham Əliyevlə həmrəylik nümayiş etdirməliyik. Prezidentə öz mövqeyimizlə kömək edib, əlavə ictimai dəstək verməliyik ki, hökumətin içində kök atmış kriminal, korrupsiyaya bulaşmış ünsürləri daha arxayın şəkildə təmizləsin. Azərbaycandakı sağlam müxalifət partiyalarının əksəriyyətinin bu mövqedə olduğunu dəqiq bilirəm. Onu da bilirəm ki, keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovla, hakimiyyətin içində hələ mövcud olan Eldar Mahmudov kimi məmurlara bağlı olan müxalifət sağlam müxalifətə prezidentə islahatlar işində dəstək ifadə etməsinə müxtəlif yollarla imkan vermir. Sağlam müxalifəti şantaj edirlər, onlara qarşı böyük antitəbliğat, şərləmə kampaniyası başladacaqları ilə hədələyirlər. Bütün vasitələrlə çalışırlar ki, müxalifətlə İlham Əliyev arasında yaxınlaşma baş verməsin, düşmənçilik yaransın, ölkədə qarışıqlıq düşsün və prezidentin başlatdığı islahatlar, kadr təmizləmələri yarımçıq dayansın. Prezidentə belə müxtəlif üsullarla müqavimət göstərirlər ki, qeyd etdiyim prosesi davam etdirməsin. Nardaran hadisəsi də müqavimətin tərkib hissələrindən biridir. Odur ki, cənab prezidentə müxalifətin ciddi dəstəyi lazımdır. Dövlət başçısı görəndə ki, ölkənin sağlam müxalifət qüvvələri onun tərəfindədir və bundan sonrakı islahatlar istiqamətində addımlarına müxalifətdən dəstək olacaq daha da əminliklə prosesi aparacaq. Prezident əmin olsa ki, ona müxalifət tərəfindən arxadan zərbə vurulmayacaq, başlatdığı işi axıra çatdıracaq".

"Müxalifət daxilindəki sağlam qüvvələr" deyərkən hansı qüvvələri nəzərdə tutursunuz", sualına H.Hacıyev belə cavab verib: "Milli Şura adlanan qurum və onun daxilindəki qüvvələrdən başqa, digər müxalifət partiyalarını bu sıraya aid etmək olar. Müsavat Partiyasının özünü, Azərbaycan Xalq Partiyasını, KXCP-ni, eləcə də bu ilin əvvəlində keçirilən hakimiyyət-müxalifət dialoqunda iştirak etmiş digər partiyaları, özümüzü sağlam müxalifət sayıram. Cəmiyyət də, əminəm ki, belə görür. Ümid edirəm ki, bu qüvvələr yaxın vaxtlarda bir araya gəlib gərəkən addımları atacaq. Hesab edirəm ki, bu işlərə AXP sədri Pənah Hüseyn yön verə bilər. Ona görə ki, milli şəxsdir, milli maraqları üstün tutur, təşkilatçılıq qabiliyyəti, müxalifət arasında nüfuzu var, Əli Həsənovla bu ilin əvvəlində keçirilən görüşlərdə iştirak edib. Eyni zamanda, KXCP sədri Mirmahmud Mirəlioğlu da bu işə öz ciddi töhfəsini verə bilər.

Milli Şura və oradakı qüvvələr isə, heç kimə sirr deyil ki, ölkədə qarışıqlıq düşməsini istəyənlərdir. Onların ölkədə qarışıqlıq düşməsini istəyən xarici qüvvələrlə və hakimiyyət daxilindəki antiislahat qüvvələri ilə əlaqəsi var. Ona görə də belələrini qətiyyən sağlam müxalifət adlandırmaq mümkün deyil".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015

**“Baxış bucağı”**

**Müsahibədən əvvəl mübahisəmiz oldu. Xanım həmkarımızın barəsində yazdığı müəllif yazısına çox sərt reaksiya verməsinə etirazımı bildirməyim xoşuna gəlmədi. Hətta özümü də ittiham etməyə başladı ki, guya mən Nardaran hadisələri ilə bağlı ondan açıqlama istəmişəm, ancaq “yox” cavabını aldığımı demişəm. Belə bir hadisənin olmadığını deməklə bərabər, müsahibəsini nöqtə-vergülünə toxunmadan “Yeni Müsavat”da dərc etməyə hazır olduğumuzu da bildirdim. Təqribən yarım saatlıq mübahisənin sonu... müsahibə oldu. Nardaran hadisələrindən sonra qəzetimizin axtardığı deputat Eldar Quliyevlə söhbətimizi təqdim edirik:**

# “Gedib məsciddə moizə oxumalıydım?”

## Eldar Quliyev: “Mehmanı çağırıb dedim ki, get filankəslərə de ki, Hacı Talehin orda yenə nəsə qurmaları var, ona baş qoşmasınlar”

***- Eldar müəllim, siz Milli Məclisdə Nardaran əhalisini də təmsil edirsiniz. Ordan başlayaq ki, 10 minlik bu kənd qaranlıqda qalıb. Doğrudanmı əhalinin elektrik enerjisinə milyonlarla manat borcu yığılıb? Əgər belədirsə, səbəbi nədir?***

- Bəli, doğrudur. Deyirlər ki, ödəyə bilmirik. Vaxt olub ki, kənddə işıq olmayıb, mən və Nardaran ağsaqqalları getmişik Baba müəllimin (Rzayev-E.P.) yanına, yağış da başımıza töküb. İnanın, Baba müəllim də bir az gec gəldi, biz şəhərə girənə qədər yağışdan hamımız su içindəydik. Oturub danışdıq, mənim yanımda Baba tapşırdı ki, açın bunların işıqlarını. Bilirsən, bunlar bir az ərköyün uşaqdırlar. Hansı məsələlər qaldırılıbsa - xəstəxanadır, məktəbin təmiridir, hamısı həllini tapıb. İndi parlamentə qız gəlib ha, Dilarə Cəbrayılova (yeni deputatdan söhbət gedir-E.P.), onun direktoru olduğu məktəbin damını, 3600 kv.m-i mən təmir eləmişəm. Nazir müavinini aparmışam, Nardaranda bir-bir tarixi abidələri gəzmişik, abidələrin təmiri üçün vəsait ayrılıb. İdman kompleksi tikildi, ora təyin eləmək üçün Rasim adlı bir adamı verdilər mənə, getdim gənclər və idman naziri Azad Rəhimovun yanına, dedim bu oğlan idmançıdır, kömək edək qabağa getsin.

***- İdman kompleksinə gənclər, uşaqlar gəlirmi? Çünki belə təsəvvür var ki, nardaranlılar bu kimi məsələlərdən kənardadır...***

- Təbii ki, gələnlər var. Amma uşaqlar və gənclər mövhumat içərisindədir. Mənim yanıma gələn camaatın əksəriyyəti orta və yuxarı yaşda olanlardır. Təsir altına düşənlər isə 12, 13, 20 yaşlarındadır. Hamımız müsəlmanıq, mən də o qəsəbələrdən çıxmış, orda böyümüş adamam. Amma bunları ələ tez almaq mümkün olub.

***- Kim ələ alır onları?***

- Ekstremist qruplar.

***- Bundan əvvəl də dəfələrlə bənzər hadisələr yaşanıb, siz də orda deputatsınız. Bəs, siz hansı təbliğatı aparmısınız bu insanların ekstremistlərin təsirinə düşməməsi üçün? Belə görünür ki, orda görünməmisiniz, ya ehtiyatlanıbsınız, yaxud...***

- (sualı kəsir) Yox, elə deyil. Nə ehtiyatlanmaq? Artıq 11 ildir biz onlarla işləyirik. İxtilaflar, münaqişələr çox olub. Lakin həmişə qabağını almışıq. Bu hadisələrin baş verməsində Nardaran camaatı o qədər də günahkar deyil. Bu, Hacı Talehin fəaliyyətinin nəticəsidir. Nardaran camaatının günahı budur ki, adama deyərlər sən 200 adamla, özü də silahla mənim yanıma niyə gəlmisən, niyə mənim evimdə, həyətimdə təbliğat aparırsan? Nardaran camaatının ən böyük günahı budur. Mən ağsaqqallara deyəndə ki, onu kəndə niyə buraxırsınız, deyirdilər bizim artıq ona



gücümüz çatmır, gənclər sözümüzə qulaq asmır.

***- Nardaranın 10 minlik əhalisinin təqribən neçə faizi kənar qüvvələrin təsiri altında idi?***

- 20-25 faizi. 10 min əhali də hamısı orda yaşamır, şəhərdə yaşayanlar da var.

## “Mən rayonun icra başçısı deyiləm e...”

***- Qanlı hadisələrin baş verməsinin əsas səbəbi nə oldu?***

- 100 faiz xarici qüvvələrin təsiri nəticəsində.

***- İran rəsmiləri bəyan edir ki, bizim bu hadisələrdə rolumuz yoxdur...***

- Biz bu gün İranı bir dövlət kimi ittiham edə bilmərik. İranda da müəyyən qüvvələr var. Məgər bu gün İŞİD hansısa dövlətin qurumudur? Yaxud HƏMAS hansısa dövlətin təşkilatıdır?

***- Kənddə gərginliyin yaranması barədə siz nə vaxt bildiniz?***

- Mənə xəbər gəldi ki, bunlar belə bir toplantı keçirmək istəyir və adamlar (Hacı Talehin dəstəsi-E.P.) da ora gələcək. Mən də onlara xəbər göndərdim, 2-3 ağsaqqalı dəvət etdim. Köməkçiyə dedim filankəsi mənimçün tap. Qayıtdı ki, tapa bilmədim.

***- Siz orda əsas ağsaqqal olaraq kimləri tanıyırsınız, etimad göstərirsiniz?***

- Hacı Hacıağa var, Eldar Bünyadov var idi, indi o yazıq tutulub, qardaşı oğlanları öldü, bir cavan uşaq var -Mehman, cavanların yanına onu göndərirəm. Mehmanı çağırıb dedim ki, get filankəslərə de ki, Talehin orda yenə nəsə qurmaları var, ona baş qoşmasınlar. Sonradan isə mənim dilim bir metr uzun oldu, dedim axı, mən sizə dedim belə hadisələr gözlənilir.

***- Bu xəbərdarlığı nə vaxt etmişdiniz?***

- Hadisələrdən qabaq, 26 noyabrdan əvvəl. Ancaq xəbərdarlıqlar keçmədi, nə isə qiymətləndirmədilər, nəticəsi olmadı. Hacı Hacıağa ilə də telefonla danışdım. Deyəsən, həmin vaxt İranda ziyarətdəydi. Mən ona da dedim ki, belə bir şey var. Ancaq xeyri olmadı, polis də xəbər tutdu, ora getdi. Əslində polis və MTN Talehgili çoxdan izləyirdi, harda nə edirlər deyə. Bu da dayanmırdı. Türmədə 3 il yatdı, çıxan günün səhəri mən onun müsahibəsini oxudum ki, “mən mübarizəmi davam etdirəcəyəm”.

***- Hacı Talehlə nə vaxtsa görüşüb öz etirazınızı birbaşa üzünə demisinizmi?***

- Yox, həyatımda görüşməmişəm. Üzdən də tanımıram.

***- Bəs dövlət qurumlarına rəsmi müraciətləriniz olmuşdumu ki, Nardaranda hansısa proseslər hazırlanır?***

- Elə qurumlardan mənə xəbərlər gəlmişdi, dedilər ki, belə məsələlər var.

***- Siz bir deputat kimi son dəfə Nardaranda nə vaxt olmusunuz?***

- Noyabrın 30-da.

***- Hadisələr baş verəndən sonra kəndə neçə dəfə getmisiniz?***

- Hadisələrdən sonra 30 noyabrda getmişəm, ondan sonra kənddə olmamışam.

***- Niyə?***

- Bu gün orda fövqəladə vəziyyətdir.

***- Fövqəladə vəziyyət olsa belə, Milli Məclisin deputatı kimi sizin üzünüzə qapılar açıqdır...***

- Yox. Heç olmasa açın, baxın, görün orda vəziyyət necədir. Fövqəladə vəziyyətdə heç kimi ora buraxmırlar.

***- Artıq yollar açılıb, gediş-gəliş var. Sizin orda olmağınız isə həm də ona görə vacibdir ki, soyuqda qalmış əhalini dinləyəsiniz, dövlət qurumlarına onların sözünü çatdırasınız... Kimlərsə yenidən vəziyyətdən istifadə edib gərginlik yarada bilər.***

- Mən Baba Rzayevə zəng edib danışdım, indi gözləyirlər, hökumətin qərarı olmalıdır. Əgər dövlət, ya hökumət tərəfindən tədbir görülürsə, onun nəticəsini gözləmək lazımdır. Ondan sonra biz irəli düşə bilərik.

***- Bayaq dediniz ki,20-25 faiz təsir altına düşüb. Deməli, 75 faiz əhali günahsızdır, belə vəziyyətdə xəstəsi, uşağı olan əhalinin problemlərinin həll olunması sizinçün vacib məsələ deyilmi? Siz özünüz bu qış günündə qazsız, işıqsız kənddə yaşaya bilərdinizmi?***

- Yox, əlbəttə ki, mən yaşaya bilməzdim. Əgər mən orda qalsaydım, yaşayış yerim Nardaran olsaydı, belə hadisələrin olmasına imkan verməzdim.

***- Siz Nardaranın deputatısınız, elə də ciddi fərqi yoxdur.***

- Yox, mən orda yaşamıram, evim çoxdandır şəhərdədir.

***- Siz Naxçıvanın da deputatı ola bilərdiniz, amma Bakıda yaşayardınız. Bu, məsuliyyətdən azad etmir. Nardarana hər gün getmək olar, mərkəzdən yarım saatlıq yoldur.***

- Gəlin bir az real olaq. Onda mən gedim orda qalım.

***- Sizə Nardaran camaatı səs verib, onları təmsil edirsiniz...***

- Səs veriblər e. Amma mənim ondan başqa 3 qəsəbəm də var. Mənim işimin mahiyyəti o deyil. Mən gedib bunların yanında məsciddə moizə oxumalıydım ki, belə şeylər eləməyin? Xəbər göndərdim ki, belə etmək olmaz!

***- Daxili işlər naziri, onun müavini Nardarana getdi. Siz də parlamentdə kəndi təmsil edən şəxs kimi gedə bilərdiniz...***

- Onların bilavasitə işidir. Biz əlaqə saxlayırdıq, telefonumuz çoxlarında var.

***- Amma sizin orda görünməyiniz, bəlkə də, çoxlarını geri çəkilməyə vadar edərdi, aqressiyanı azaldardı...***

- Artıq orda münaqişə yoxdur. 30-da ki, biz oranı səliqə-səhmana saldıq, 1 dekabrda hökumətin ora girməyinin əsas səbəbi silahların yığılması idi. Onlar mənim qarşımda meyitlərin qaytarılması məsələsini qoymuşdular, mən də xahiş etdim, dedim ki, meyitləri vermək lazımdır. Amma bir şeyi bilin, mən rayonun icra başçısı deyiləm e...

***- Sizin daha geniş səlahiyyətləriniz var...***

- Xeyr elə deyil!

***- Parlamentdə qanunların sərləşdirilməsinin əsas səbəbi Nardaran hadisələri oldu və bu hadisələrin baş verməməsi üçün hər kəs öz işini görməliydi, bunun fərqindəsinizmi?***

- Qanunlara dəyişiklik çoxdan hazırlanırdı. Çünki Azərbaycanda son zamanlar dini ekstremist qruplar çox baş qaldırıb. Bir də bu dəstək bilirsən hardan gəlir? Bu həvəs



İŞİD-dən gəlir. Qarabağ məsələsi qalıb burda, azərbaycanlı gedib İŞİD-ə, ya kürdlərə qoşulur. Bir az da cavanlar yəqin silah, atışma məsələlərindən həvəslənirlər.

***- Hesab olunur ki, Nardaran problemini birdəfəlik həll etmək lazımdır. Siz birdəfəlik həll üçün nələri təklif edirsiniz?***

- Məsələyə kompleks yanaşmaq lazımdır.

***- Konkret təklifləriniz nədir?***

- Məsələn, ilk növbədə təmizləmə işləri aparılmalı, zərərli insanlar ordan aralanmalıdır, necə ki, əməliyyat oldu. İkincisi, təhsili gücləndirmək lazımdır. Uşaqları məcburi qaydada məktəbə cəlb etmək lazımdır.

***- Nə qədər uşaq təhsildən yayınır?***

- Bu rəqəm məndə yoxdur.

***- Amma siz 11-ci ildir bu kəndin deputatısınız...***

- Siz bu saat getsəniz, orda sizə deyəcəklərmi ki, məktəbə gedir-getmir? Deyəcəklər hamısı gedir.

***- Bunun üçün müvafiq qurumlar var, təhsil şöbəsi var, siz məktəblərə gedə, vəziyyətlə yerindəcə maraqlana bilərsiniz...***

- Elşad, deyəsən, biz bir-birimizi başa düşə bilmirik. (?-E.P.) Bizim bəzi rayonlarımızda da uşaqları dərsə qoymurlar. Mənim deputat olduğum 7-8 il ərzində Nardarandan bir dənə uşaq ali məktəbə girməmişdi. Həmişə deyirdim ki, necə olur başqa qəsəbələrdən 15-20, 50 nəfər ali məktəbə girir, ancaq burdan bir nəfər yoxdur? Bu il isə Sabunçu rayonundan ən yüksək bal toplayan Nardarandan oldu, 670-dən yuxarı bal topladı, tələbə adını qazandı. Artıq mən sevindim ki, danışıqlarım effekt verdi.

***- İşsizliyin də problem olduğu deyilir...***

- Bəli, problem var. Bir neçə dəfə mənə müraciətlər olub. Demişəm, çörək zavodunda işə qoya bilərəm. Ancaq onların xahişi nədir: vergiyə, gömrüyə, aviasiyaya işə düzəldin. Heç təhsili də yoxdur. Bir gün biri mənə yaxınlaşıb ki, bunu söndür, deyim... (diktofon sönəndən sonra orijinal xahişi deyir-E.P.) Nardaranda xalça zavodu var idi, son vaxtlara qədər yaxşı da xalça toxuyurdular, yaxşı da satılırdı. Ancaq zavodu bağlayıb sökdülər. Bunların əsas işi əkinçilik və balıqçılıq idi. İndi balıqçılıq da məhdudlaşıb, ancaq pomidor, xiyar əkirlər. Arada məhsulu Moskvaya aparırdılar, ancaq son vaxtlar bu, mümkün olmur. Sovet vaxtı gülçülük də var idi, indi o da yoxdur.

## “Nardaran camaatının ən böyük günahı odur ki...”

P.S. Müsahibənin daha geniş variantını Musavat.com-dan oxuya bilərsiniz.

❑ **Elşad PAŞASOY**

❑ **FOTO: “YM”**

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015



# Yuxuda ölənlərin xoşbəxtliyi

Zamin HACI
zaminhaci@gmail.com

**"Günəşli" neft yatağında yanğın neçə ailələrimizin günəşini söndürdü. Biz bu kədərli əhvalatın, faciənin xəbərlərini ilk dəfə xarici agentliklərdən aldıq. Camaat "Röyter"i izləyirdi. Azərbaycanlı jurnalistlər isə (içi mən qarışıq) öz acizliklərini boyunlarına alaraq sosial şəbəkələrdə elan verirdilər: "Hadisədən xəbəri olan varsa bizə bildirsin". Halbuki, tərsinə olmalı idi. Camaat jurnalistlərdən informasiya almalıydı.**

Sovet vaxtı da belə olub. İnsanlar öz ölkələrində baş verənləri "Amerikanın səsi", "Azadlıq", "BBC" radiolarına gizli qulaq asmaqla öyrənirdilər. İndi də belə ölkələr var. Misal üçün, Şimali Koreya, İran. Azərbaycanda da informasiya məkanı artıq bu kökdədir. Açıq cəmiyyət gedib işinin dalıyca, indi biz yetərincə qapalı cəmiyyətin sakinləriyik. Anons edə bilərəm ki, bir azdan burada mənim də yazılarımı oxuya bilməyəcəksiniz. Bəlkə heç "bura" deyə bir yer də qalmadı.

İndi 30 adam bir gündə həlak olub deyə matəm elan elədilər, yoxsa neft sənayemizin hər il azı 15-20 qurbanı vardı. Bir növ, atəşkəs qurbanları kimi, gərək kimsə bunların da monitorinqini aparıb adbaad siyahı tərtib edəydi. Belə getsə bunu da Almaniyada yaşayan bloqqer Həbib Müntəzirdən xahiş eləməli olacağıq. Ölkə daxilində monitorinq aparanları tutub zindana salırlar. Guya mətbuat boğulanda özüldə yanğın da sönür. Belə fikirləşirlər. Çünki şəffaflığın düşmənidirlər. Çünki şəffaflıq olsa, media inkişaf etsə qəzetçinin özünün də qayığı, helikopteri olar və gedib görər ki, əslində özüldə xilasetmə işləri çox bərbad aparılıb. Media inkişaf eləsə, özüllərdə təhlükəsizlik, əmək qaydalarına necə riayət edilməsi vaxtaşırı diqqət mərkəzinə gələr. İndiki halda isə, dərə xəlvət, tülkü bəy. Cücələr də islanıb boğulur, tülkülərə yem olur.

Nardaran hadisəsindən sonra Mətbuat Şurasının sədri, təzəcə deputat mandatı ənamı da almış Amaşovun bir açıqlaması vardı, deyirdi media özünü yaxşı apardı. Bunu belə anlamaq lazım idi: "Artıq hamını susdura bilmişik, istənilən işi görmək olar". Halbuki, Nardaranda da medianın qətli aydın görünmüşdü. Günlər keçib, ancaq cəmiyyət hələ də orda nə olduğunu düzgün bilmir. Neçə nəfər ölüb, neçəsi tutulub, ölənlər hardadır və sairə - bütün suallar açıq qalır. Əməliyyatların primitiv fotosu, videosu belə ortada yoxdur. Amaşov bunu tərifləyirsə, o zaman "ən yaxşı jurnalist ölü jurnalistdir" şüarını MŞ-nin qaranlıq dəhlizindən asa bilər. Təbriklər. Çüçxe rejiminiz qutlu olsun. "Tıtçi masee, podji marara!" (Şimali koreyalıların dilində təxminən "baxma, qulaq asma" deməkdir).

Qapalı, totalitar dövlət quruculuğu yolunda iri addımlarla irəliləyərkən hər özüldə 30-40 adam ölsə bundan narahat olmaq lazım deyil. Bilməyəndən sonra narahat olmursan. Necə ki, vaxtilə sovet adamları Çernobılda nə olduğunu uzun müddət bilmədilər. Hətta bilgisizlik üzündən xeyli insanı fəlakət zonasına basıb işlətdilər, nəticədə bütün SSRİ məkanında "Çernobıl əlilləri" deyə bir sinif yarandı. Elə bu cür xəbərsizliyə görə indinin özündə bir çox sovet adamları həmin bərbad dövlətin xiffətini çəkirlər. Deyirlər o vaxt yaxşı idi, fəlakət, ölüm-itim olmurdu. Daha bu adamlara necə izah edəsən ki, indikindən qat-qat artıq fəlakət və faciələr olurdu, sadəcə, bir küçənin camaatı o biri küçədəki faciədən xəbərsiz qalırdı. İnsanlar "filankəs yuxuda öldü, necə xoşbəxtdir" deyirsə, onlardan açıq, oyaq cəmiyyət istəmək anormaldır.

"Günəşli" faciəsinə görə yaradılan dövlət komissiyasına baş nazir Artur müəllim Rasi-zadə sədrlik edirmiş. Bu, uca millətimizin onun soyadını düzgün yazmağı öyrənməsindən keçən qısa müddətdə baş nazirin ilk işidir. Bəlkə də heç Artur müəllim özü də bilmir necə məsul vəzifə daşıyır. "Alabala" Abid deyilənə görə Çində azarlayıb, vətənə gələ bilmir, yoxsa onu komissiyaya sədr qoyub əylənərdik. Bəxtimiz gətirsə bəlkə ağlamsınardı.

Bəs "bu da külək idi, əsdi" deyən necə, hələ olmayıb?





# Rusiyaya qarşı "Türk təhlükəsizlik kəməri" - Bakı həssas nöqtədə...

## Kremlin davamlı hədələri Türkiyəni təcili şəkildə kontur-tədbirlər görmək və çevik diplomatiya aparmaq zorunda qoyub; Əhməd Davudoğlunun Azərbaycan səfərindən dərhal sonra Ərdoğanın Türkmənistana yollanmasının pərdəarxası; Bakı yeni risklərdən yayına bilər, əgər...

**"Su-24" təyyarəsinin vurulması ilə bağlı insidentə görə Rusiya və Türkiyə arasında münasibətlər gərgin olaraq qalır. Daha çox da Kreml rəsmilərinin, öncəliklə prezident Vladimir Putinin kompromissiz mövqeyi, davakar və aşağılayıcı ritorikası nəticəsində situasiyanın yumşalması müşahidə edilmir. Doğrudur, iki ölkə arasında diplomatik əlaqələr qalır, səfirlər geri çağırılmayıb. Ancaq diplomatik münasibətlər indi faktiki olaraq, yox səviyyəsindədir.**

Müşahidə edilən digər mühüm məqam budur ki, Türkiyə iqtidarı qarşılıqlı sanksiyalardan maksimum qaçmağa səy edir. Çünki Rusiya hökumətindən fərqli olaraq yaxın və orta perspektivdə bunun hər iki tərəfə zərərli olacağının fərqindədir. Ankara eyni zamanda durumu bir az da ağırlaşdırmamaq naminə Kremlə ünvanlı birtərəfli jestlərini davam etdirir.

Məsələn, Rusiya yanvarın 1-dən Türkiyə vətəndaşlarına qarşı vizalı rejimi bərpa etmək qərarına gəlsə də Ankara Rusiya vətəndaşlarına münasibətdə analoji əks-addım atmağa hazırlaşmır. Üstəlik, o, Moskvanı bütün ikitərəfli əlaqə kanallarını açıq saxlamağa çağırır. Baş nazir Əhməd Davudoğlu Bakıda bu mövqeyi növbəti dəfə ortaya qoydu, Moskvanı praqmatik olmağa və problemləri üzbəüz, masa ətrafında müzakirə eləməyə səslədi.

Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ilə onun rusiyalı həmkarı Sergey Lavrov arasında birincinin təşəbbüsü ilə ötən həftə Belqradda baş tutan görüş də qardaş ölkənin Rusiya ilə bütün sahələr üzrə əlaqələri saxlamaq istəyinin təzahürü idi. Bu görüş "Su-24" olayından sonra ilk dəfə yüksək səviyyədə reallaşan təmas kimi yadda qaldı.

***

Lakin görünür, qardaş ölkənin bu qəbildən ciddi xoşməramlı addımları, "əl uzatmaları" da Rusiyanın aqressiv mövqeyindən çəkilməsi üçün yetərli deyil. Putinin keçən həftəsonu Federasiya Şurasına etdiyi müraciət zamanı Türkiyəni yenidən hədələməsi, "Əgər onlar düşünürsə ki, pomidorla, hansısa tikinti sektorunda məhdudiyyətlərlə canlarını qurtaracaqlar, möhkəm yanılırlar" deməsi, "Biz nə edəcəyimizi yaxşı bilirik", "Onları hələ çox peşman edəcəyik" tipli həqarətli ifadələri qənaətimizə sübutdur.

Putin çıxışında belə bir hədələyici ifadə də işlətdi ki, "Cavabımızı başqa yollarla da verəcəyik". Belə çıxır ki, Rusiya qardaş ölkəyə qarşı arxadan zərbə tipli qəfil pisliklərə də imza ata bilər. Bəzi analitiklərə görə, bu məqsədlə Rusiyanın PKK-ya, kürd separatçılarına dəstəyi gücləndirməsi, qaz təchizatında Ankaraya ciddi problemlər yaradacağı istisna olunmur.

***

Əlbəttə ki, Ankara Kremlin yaradacağı mümkün fors-major situasiyaları ciddiyə alır. Prezident Rəcəb Tayyib Ərdoğanın bu günlərdə Qətər Əmirliyinə etdiyi səfər çərçivəsində iki ölkə arasında ilkin qaz anlaşmasının imzalanması, ardınca baş nazir Əhməd Davudoğlunun kifayət qədər uğurlu Bakı ziyarəti və TANAP ətrafında aparılan müzakirələr Türkiyənin bu yöndə artıq preventiv tədbirlərə start verdiyini göstərir.

Qeyd edək ki, Əhməd Davudoğlunun Bakı səfərindən az sonra (dekabrın 11-i) prezident Ərdoğan Türkmənistana gedəcək. Orta Asiyada türkdilli Qazaxıstanın yox, məhz Türkmənistanın seçilməsi də sözsüz ki, qaz məsələsi və transxəzər qaz kəmərləri, habelə Türkiyənin enerji təhlükəsizliyini daha zəmanətli eləmək planları ilə bağlıdır.

"Türkiyə özünə başqa neft-qaz təchizatçıları da tapa, Rusiyasız keçinə bilər". Bunu prezident Rəcəb Tayyib Ərdoğan yerli telekanalların birində çıxışı zamanı söyləyib. "Türkiyənin enerji sahəsində bir ölkədən asılılığının qarşısını almaq üçün ciddi addımlar atılır". Bu sözləri isə Əhməd Davudoğlu Azərbaycandan qayıtdıqdan sonra təyyarədə jurnalistlərə bildirib.

Baş nazir ardınca deyib: "Prezident İlham Əliyevlə TANAP layihəsinin mümkün qədər tez həyata keçirilməsini müzakirə etdik. Bu layihə çərçivəsində daşınacaq 16 milyard kubometr qazdan 6 milyardı Türkiyənin payına düşəcək. Ancaq ehtiyac olacağı hallarda bu faiz nisbəti dəyişə bilər".

Onun sözlərinə görə, Türkiyə iqtisadiyyatını enerji sahəsindəki mənfi təsirlərdən qorumaq üçün hazırlıq işləri sürətlə davam edir. Bir daha embarqo məsələsinə toxunan Davudoğlu Moskvaya xatırladıb ki, sanksiyalar elə məsələdir ki, bir gün onu tətbiq edən ölkənin özünə zərər verir: "Məsələn, Türkiyə olaraq, Rusiya və İrana qarşı tətbiq olunan sanksiyalara dəstək vermədik. Çünki hesab edirik ki, iqtisadi embarqo fayda vermir".

***

Türkiyənin Rusiyadan 55%-lik qaz asılılığının azalmasında şübhəsiz ki, ABŞ başda olmaqla Qərb də maraqlıdır. Hər halda təcrübədən məlumdur ki, Ankaranın Kremldən energetik asılılığı Rusiyaya qarşı iqtisadi sanksiyaların effektini azaldır. İndi fürsətdir ki, Qərb, necə deyərlər, "Türkiyəni öz yanına qaytarmaq" üçün hərəkətə keçsin və Türkmənistandan başlanğıc götürən "türk təhlükəsizlik kəməri"nə praktik dəstək versin.

Rusiya təhlükəsini qarşı "türk təhlükəsizlik kəməri"ndə isə Azərbaycan mərkəzi mövqe tutur. Bu amil ölkəmizin Türkiyə və Qərb üçün strateji, energetik və geosiyasi əhəmiyyətini artırmaqla yanaşı, Moskva qarşısında rəsmi Bakıya müəyyən yeni risklər də yaradır. Şəksiz ki, Putinin son mülahizələrindən müəyyən dozada Azərbaycana da pay düşür.

Söhbət həm də Kremlin Xəzər akvatoriyasında mütəmadi güc nümayişindən (gələn il Rusiya Xəzər dənizində 20-yə yaxın iri hərbi təlim keçirməyi planlaşdırır) və transxəzər qaz kəmərinə yaradacağı potensial təhlükələrdən gedir. Moskva buna dəfələrlə işarə vurub: məsələn, Xəzərdəki Rusiya gəmilərindən guya İŞİD mövqelərinə qanadlı raketlərin atılması həm də sahilyanı iri qaz ölkələri kimi Azərbaycan və Türkmənistana ünvanlı şantaj, hədə idi. Ondan qabaq isə Rusiya XİN rəsmisi transxəzər qaz layihəsinin reallaşması uçun bütün sahilyanı ölkələrin razılığının alınmalı olduğunu bildirmişdi.

Ancaq bir məsələdə deyildiyi kimi, "Uçmaq istəməyəndən qartal olmur". Ayrı sözlə, yeqin ki, Aşqabad və Bakı yeni çətinlikləri də göz altına alıb. Azərbaycan prezidenti İlham Əliyevin Bakıda Davudoğlu ilə görüşdən sonra söylədiyi "Azərbaycanla Türkiyə bütün məsələlərdə bir yerdədir" bəyanatı, həmçinin, görüş çərçivəsində faktiki surətdə "Türk layihəsi" olan TANAP-ın inşasını sürətləndirmək qərarının verilməsi bu xüsusda böyük önəm daşıyır.

***

Bütün hallarda bu kimi layihələrin uğurla reallaşması önündə dayanan Rusiya təhdidlərini və təxribatlarını neytrallaşdırmaq üçün ABŞ-ın, Qərbin sanballı dəstəyinə ehtiyac var. Çünki Rusiyanı hazırda ən çox çəkindirən güc məhz Qərbdir, NATO-dur. Necə, hansı üsullarla? Bu, artıq Qərb strateqlərinin işidir. Bir şey dəqiqidir və yuxarıda da vurğulandı ki, Rusiyanı durdurmaq - ABŞ və Avropa Birliyinin də strateji mənafeyinə cavab verir.

Beləcə, milli maraqlar, qardaş Türkiyə ilə tale oraqlığı və vəfa borcu Azərbaycanı Qərblə təzədən yaxınlaşmaq, eyni səfdə yer almaq zorunda qoymaqdadır. Energetik bağlılıq isə siyasi və digər bağları möhkəmlətməyi diktə edir. Bölgə ətrafında cərəyan edən və sürətlənən başqa proseslər də nəzərə alsaq, demək olar ki, 2016 - bir çox parametrlər üzrə böyük ehtimalla, təlatümlü və həlledici bir il olacaq.

❑ **Analitik xidmət**

**Azərbaycan prezidenti İlham Əliyevin Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi fonunda hər iki ölkə arasında vasitəçi ola biləcəyi ilə bağlı Vladimir Putinin səlahiyyətli nümayəndəsi Sergey Markovun çıxışından bir həftə ötür. Bu müddət ərzində ölkə başçısının vasitəçi olmaq ehtimalları öz aktuallığını saxlasa da, hələ ki, məsələdə heç bir irəliləyiş yoxdur. Sanki məsələ arxa plana keçib.**



# Azərbaycanın Türkiyə ilə Rusiya arasında vasitəçi olmaq şansı qalır

## Qabil Hüseynli: "Belə təşəbbüs birdən-birə, Rusiyanın qəzəbli olduğu vaxtda reallaşa bilməz..."

Azərbaycanın rəsmi Ankara və Moskva ilə münasibətlərinin yaxın olması İlham Əliyevin vasitəçi olmaq məsələsini gündəmə gətirmişdi. Amma görünən budur ki, Türkiyə və Rusiya bu məsələdə gözləmə mövqeyi seçiblər.

Politoloq Qabil Hüseynli hesab edir ki, Azərbaycan prezidentinin Türkiyə ilə Rusiya arasında vasitəçi olmaq ehtimalı gündəmdən düşməyib: "Türkiyənin baş nazirinin ölkəmizə səfərində də bu məsələ gündəmdə idi. Məsələnin gündəmdən çıxması mümkün deyil. Rusiya hələ ki, başa düşülən deyil. Çox radikal xətt götürüblər. Hər iki ölkə arasındakı qarşıdurma dənizdəki gəmilərin saxlanılması müstəvisinə keçib. Türkiyə və Rusiya gərginlikdə özlərini haqlı sayırlar. Bu vəziyyətdə Türkiyənin mövqeyi daha inandırıcı görünür. Hamı Türkiyənin tərəfini tutur. Rusiyanın NATO ölkəsi olan Türkiyəyə etdiyi təhdidlər diplomatik etik qaydalara uyğun deyil. Dünya cəngəllik qanunları ilə idarə olunmur. Türkiyəni haqsız hesab edirsinizsə, məhkəməyə verin. Beynəlxalq məhkəmələr var. Vasitəçilik məsələsini həm Azərbaycan, həm də Qazaxıstan prezidentləri öz üzərlərinə götürüblər. Türkiyə-Rusiya münasibətlərinin düzəlməsini çox istədiklərini hər iki ölkənin prezidenti bəyan ediblər. Bu təşəbbüsü ilk dəfə Azərbaycan prezidenti İlham Əliyev verib. Ancaq təşəbbüs birdən-birə, Rusiyanın qəzəbli olduğu bir vaxtda reallaşa bilməz. Bunun üçün zaman lazımdır. Aradakı təhdidlər qalxmalıdır. Tərəflərdən birinin danışıqlara meyilli olması digər tərəfin də qəzəbini azalda, bu zaman vasitəçilərin işləri asanlaşa bilər. Vasitəçilərin hər iki ölkə arasındakı münasibətləri düzəldəcəkləri ilə bağlı fikirləri gərginliyin qısa zamanda aradan qalxması anlamına gəlməməlidir. Yumşalma da ola bilməz".

Qabil Hüseynli rus təyyarəsinin vurulması ilə şimal qonşumuzun beynəlxalq nüfuzuna ciddi zərbə dəydiyini də qeyd etdi: "Bu hadisə Rusiyanın sağa-sola at oynatmasının qarşısını aldı. Kremlin nüfuzuna ciddi zərbə vurdu. Rusiya bütün dünyada bir qorxu sindromu yarada bilmişdi. Bunu aradan qaldırdığına görə Rusiya Türkiyəyə qəzəblidir. Qazaxıstan bu məsələlərdə rus təyyarəsinin Suriya səmasında vurulduğunu bildirdi. Azərbaycan tərəfi isə təyyarənin hansı səmtdə vurulmasını qeyd etməyərək, hər iki ölkə arasında münasibətlərin yaradılmasına cəhd edəcəyini bildirdi. Türk dövlətləri içərisində Türkiyənin münasibətlərinin yaxşı olduğu ölkələr az deyil. Tatarıstan belə təyyarə qəzasından sonra Türkiyəni qızğın surətdə müdafiə etməyə başlayıb. Rusiyanın türk dünyasının başında Türkiyəni görmək istəməməsi çox absurddur. Rusiyanın özündə 10-dan artıq türkdilli xalq var. Onların sayı 20 milyonu keçib. Bu olan surətdə Türkiyə ilə münasibətlərin gərginləşməsi Rusiyaya xeyir gətirməyəcək. Putinin qəzəbi daha çox daxildə manevr etməyə yönəlib. Çünki təyyarənin vurulması ilə Putinin reytinqinə böyük zərbə vuruldu. Putin belə hədələr gəlməklə daxildəki reytinqini qaldırmağa cəhd edir. Bu məsələdə millətçi şovinist dairələr onun səsinə səs verir. Amma məsələ burasındadır ki, daxildə reytinq qazanmağın dünya siyasətinə dəxli yoxdur. Türkiyə ilə çəkişən zaman Suriya və Ukrayna məsələləri arxa plana keçir. Bu baxımdan hesab edirəm ki, Rusiyanın bu hərəkətləri uzun sürməyəcək".

❑ **Cavanşir ABBASLI**

# "Kremlin Azərbaycana qarşı təxribatları istisna deyil"

## Natiq Miri: "Xəzərdəki son partlayışda Rusiyanın əlinin olması ehtimalı da var..."

**Rusiya ilə Türkiyə arasında gərginlik fonunda Azərbaycanla Türkiyə arasında yaxınlaşma prosesi gedir. Azərbaycan dövləti strateji müttəfiqi olan qardaş ölkəyə imkanı çatdığı qədər dəstək verir. Bəzi siyasi şərhçilər isə hesab edir ki, bu durum Rusiyanı qəzəbləndirə bilər. Bəs Rusiya Türkiyə ilə daha da yaxınlaşdığı üçün Azərbaycana qarşı hansı təxribatlara əl ata bilər?**

Politoloq Natiq Miri bildirdi ki, Rusiya Cənubi Qafqaz respublikalarını öz çevrəsində görmək istəyir. Bu istəyin reallaşmasına maneə saydığı istənilən hərəkət onu qəzəbləndirir. Qəzəblənən Rusiyanın cəza tədbirlərinə əl atması gözləniləndir. Azərbaycan artıq bundan sonra Rusiyadan Azərbaycana ola biləcək təhlükələri göz önünə almalı, tədbirlər görməlidir: "Xəzər dənizində Günəşli qaz terminalında son partlayış hadisəsində terror versiyasının ortalığa qoyulması və bu yöndə araşdırmaların aparılmasının tərəfindəyəm. Keçmişə nəzər salsaq, görəcəyik ki, bütün kritik və strateji məqamlarda bəzi qonşularımız Azərbaycana qarşı təxribat, terror aktları törədib. Xəzərdə baş verən və insan itkisi ilə nəticələn son olayda Rusiyanın əlinin olması ehtimalı az deyil. Baxmayaraq ki, həmin gün çox şiddətli qasırğa var idi, ancaq nəzərə almaq lazımdır ki, Xəzərdə bu cür külək, qasırğa ilk dəfə deyil. Faciəvi hadisənin məhz Türkiyə baş nazirinin ölkəmizdə olduğu gün baş verməsi



Natiq Miri

düşünməyə əsas verir. Bu partlayışın Türkiyə ilə Azərbaycanın yaxınlaşmasına cavab olması istisna deyil. Belə bir hadisə Türkiyəyə, Azərbaycana və onların dəstəkçiləri olan güclərə bir mesaj ola bilərdi. Odur ki, terror versiyası mütləq araşdırılmalıdır".

N.Mirinin fikrincə, son günlər Dağlıq Qarabağ cəbhəsində gərginliyin artmasında Rusiya amili var: "Bunlar təsadüfi baş vermir. Ermənilər öz ağalarının diktəsi ilə hərbi vəziyyəti gərginləşdirir. Azərbaycana yeni separatizm problemi yaradılmasına cəhdlərin olacağını da ehtimal etmək mümkündür. Azərbaycanın xüsusi xidmət orqanları və bütövlükdə ictimaiyyət çox həssas davranmalıdır. Azərbaycanın daxilində hakimiyyətlə cəmiyyət, müxalifət arasında dialoq mühitinin olması vacibdir. Belə bir mühit ölkənin daxilində gərginlik yaratmaq istəyənlərin planlarının gerçəkləşməsinin baş tutmamasına təkan verən amildir. Son Nardaran hadisəsi göstərdi ki, Azərbaycanı qarışdırmaq istəyən regional güclər var".

Ekspertin fikrincə, şimal qonşumuz Azərbaycanı iqtisadi baxımdan da sıxmaq istiqamətində addımlar ata bilər: "Azərbaycandan kənd təsərrüfatı məhsullarının Rusiyaya keçidinin qarşısının alınması bu istiqamətdə siqnal sayıla bilər. Qeyri-rəsmi embarqolar ola bilər. Mümkündür ki, Rusiyada işləyən Azərbaycan vətəndaşları üçün problemlər yaradılsın".

❑ **E.SEYİDAĞA**

# Hansı irəlidir: hərb, yoxsa sülh?..

**Hüseynbala SƏLİMOV**



**Bəlkə də burada bilavasitə bu gün Ermənistanda baş verən hadislərdən və eləcə də cəbhə xəttinə yaxın rayonların bu ölkənin silahlı qüvvələri tərəfindən getdikcə intensivləşən artilleriya atəşinə tutulmasından danışmaq daha məqsədəuyğun olardı. Amma Ermənistanda baş verən hadisələr həmişə özünün məchulluğu ilə sezilib. Bu hadisələr bir növ ümid yeri qoymur.**

Biz nə istəyirik? İstəyirik ki, elə bir gün gəlsin ki, Ermənistanın cəmiyyəti oyanaraq neçə illərdir hər iki ölkəni üzən bu silahlı münaqişəyə son desin. Amma baxıb görürsən ki, bəzən tamam əksinə olur - ölkə müxalifəti Sərkisyan hakimiyyətini Qarabağın müstəqilliyini tanımamaqda, Azərbaycana qarşı "loyal" siyasət yürütməkdə və bir növ qəti hərəkət etməməkdə qınayır.

Bəlkə də ölkədə vəziyyət gərginləşəndə cəbhə xəttində də vəziyyətin gərginləşməsi, atəşkəs rejiminin pozulmasının daha intensiv xarakter alması elə bununla bağlıdır - Sərkisyan hakimiyyəti erməni ictimaiyyətinin gözündə daha "qətiyyətli", Azərbaycana qarşı daha barışmaz görünməyə cəhd edir.

Həm də nə məsələdirsə, prezidentlərin görüşü ərəfəsində atəşkəs rejiminin pozulması daha intensiv xarakter alır. Son vaxtlar isə erməni tərəfi iriçaplı və daha çox dağıntı və ya təlafat yaratmaq istidarında olan artilleriya silahlarından istifadə edir.

Təbii ki, Azərbaycan belə cəhdlərin qarşısını alır. Amma münaqişənin daha bir özəlliyi var - ermənilərin yaşayış bölgələri cəbhə xəttindən bir qədər uzaq məsafədə yerləşir. Bu isə istər-istəməz asimmetrik hərbi vəziyyət və cavab atəşləri üçün çətinlik yaradır. Amma pessimizm üçün də əsas yoxdur. Zaman keçdikcə bizim müdafiə və hücum imkanlarımız artır, həm də çevikləşir.

Ona görə də ermənilərin hansısa üstünlüyündən danışmaq yersizdir. İnşallah, çox keçməz ki, işğal olunmuş torpaqlar da tamam azad edilər, Qarabağda Azərbaycanın suverenliyi bərqərar olar, bu bölgəyə nəhayət ki, sülh gələr. İndi isə hələlik diplomatiyanın cəhdlərini izləmək qalır.

Bu mənada prezidentlərin görüşü də istisna deyil. Artıq təxmini vaxt da bəlli görünür - görüş dekabrın ortalarında baş tutmalıdır. Təbii ki, gözləntilər elə böyük deyil. Bu vaxta qədərki görüşlər bir nəticə versəydi, bu görüşə də ümid etmək olardı. Amma əfsus ki, həmin o görüşlər indi daha çox Qarabağ problemilə məşğul olan ən peşəkar tədqiqatçıların və bir də bu görüşlərlə bilavasitə bağlı olan diplomatların yadında qalıb.

İl ərzində Rusiyanın münaqişə ilə bağlı guya ki, irəliləyişə yönələn cəhdləri də diplomatik və siyasi dedi-qodudan başqa bir şey olmadı. Ən azı bu gün üçün və yaxın gələcək üçün ortada bir şey yoxdur. Rusiya indi daha çox Suriya ilə və Yaxın Şərqlə məşğuldur. Özü də bunu böyük həvəslə edir, çünki bu məsələ digər münaqişələri, xüsusən də Ukraynadakı münaqişəni bir növ arxa plana və geosiyasi məchulluğa keçirir.

Ruslar bir məsələni yaxşı əxz ediblər - onlar bilir ki, ən yaxşı müdafiə hücumdur. Ona görə də böyük həvəslə Suriyadakı münaqişəyə girişdilər və bu münaqişədə daha dərinə getdilər ki, bir az əvvəldə dediyimiz kimi, Ukrayna və onun problemləri unudulsun.

Təbii ki, Qarabağ, hətta Ukrayna da dünyanı Suriya qədər narahat etmir, ona görə ki, bu bölgənin qaçqınları Qərbin qapınısını döymür, bu bölgələrin hərbi komponentləri hansısa formada Qərbi təhdid etmir.

Əslində bu gün Qərb Suriya problemini həll etməkdən çox öz problemlərinin həlli ilə məşğuldur. Bunu başa düşmək üçün elə bir ağıl tələb olunmur. Bəlkə də bizim də, ukraynalıların da zəif cəhəti o oldu ki, öz problemimizi dünyanın və xüsusən də Qərbin probleminə çevirə bilmədik.

Ona görə də bu gün Minsk Qrupunun həmsədrləri tənbəl-tənbəl özlərinin sosial şəbəkələrdəki səhifələrində nəsə yazmaqla məşğuldurlar. Əvvəllər daim olmasa da, hərdən deyirdilər ki, həmsədrlər yeni təkliflər üzərində işləyir. Ola bilsin, indi də hansısa təkliflər var. Amma bu haqda heç kim danışmır, sanki onlar heç yerli-dibli olmayıb.

Bu vaxta qədər həmsədrlər öyünürdü ki, atəşkəs ciddi şəkildə pozulmur. Amma lokal pozuntular da öz miqdarına və itkilərinə görə az narahatlıq və az həyəcan doğurmur. 20 ildən çoxdur ki, insanlar Minsk Qrupunun vəd etdiyi əsl sülhü gözləyir. Görən Minsk Qrupunun vədlərinin gerçək olacağını və ilk gündən daha çox hərbi münaqişə olan problemin sülh yolu ilə çözülməsini görmək bizə qismət olacaqmı?

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015

# “Həlak olanlarla bağlı həqiqəti xarici mətbuatdan eşitməyimiz biabırçılıqdır”

## Qulu Məhərrəmli: “Təəssüf ki, bu proses çox yarıtmaz şəkildə həyata keçirildi...”



**“Günəşli” yatağında baş verən faciə və 30-dan çox neftçinin faciəvi şəkildə dünyasını dəyişməsi, onlarla insanın itkin düşməsi Azərbaycan cəmiyyətini dərindən sarsıdıb. Lakin ictimaiyyəti narahat edən bir məqam da baş verən hadisənin səbəbi, ölən və yaralananların, itkin düşənlərin sayı ilə bağlı düzgün məlumatların verilməməsi oldu.**

“Röyter” agentliyi “Günəşli” yatağında 32 nəfər neftçinin həlak olması ilə bağlı xəbər verərkən Azərbaycanda 1 nəfərin həlak olduğu barədə rəsmi açıqlama yayıldı. Bu həm həyəcan içində olan cəmiyyətə, həm də yaxınları təhlükədə olan neftçi ailələrinə qarşı bir hörmətsizlik kimi qiymətləndirildi. Media ekspertləri də məsələnin Azərbaycan mətbuatı və informasiya məkanı üçün utancverici olduğunu vurğuladılar.

Tanınmış telejurnalist, media eksperti Qulu Məhərrəmli Azərbaycan mediasının son iki gündəki fəaliyyətini yarıtmaz adlandırdı: “Bu ekstremal situasiyadır. Bir tərəfdən yanğın dənizin ortasında baş verir və jurnalistin hadisə yerinə getmək imkanı yoxdur. Bu, necə təşkil olunmalıdır, insanlar da, cəmiyyət də başa düşür ki, bunun müəyyən çətinlikləri var. Belə məqamlarda təhlükəsizliklə bağlı, jurnalistin necə hərəkət etməsi ilə bağlı müəyyən təlimatlar, standartlar var ki, situasiyaya uyğun necə hərəkət edilməlirdir, xəbərlər necə verilməlidir.

Mən hesab edirəm ki, bu verilən məlumatların bir çoxu kifayət qədər yayğın, dolaşıq, kifayət qədər aydın təsəvvür yaratmayan məlumatlar idi. Əlbəttə, dənizlə əlaqə saxlamağın da çətinlikləri var. Ancaq bu mümkünsüz deyil. Dərhal bir qərargah yaradılmalı, jurnalistlər və cəmiyyət məlumatlandırılmalı idi. Təəssüf ki, bu proses çox yarıtmaz şəkildə həyata keçirildi və mən bir xəbər adamı kimi çox narazı qaldım. Hadisə baş verib, insan çox təəssüflənir. Ancaq gərək illüziyalara qapılıb bu hadisədən təbliğat vasitəsi kimi də istifadə etməyəsən. Çünki bu, orada yaxınlarını itirən insanları qıcıqlandırır. Mətbuat da çox mozaik, bir-biri ilə əlaqəsi olmayan xəbərlər verir. Bu onu göstərir ki, məlumat mənbəyi qeyri-müəyyəndir. Burada bu işi həyata keçirən şirkət, onun mətbuat xidməti, FHN-in mətbuat xidməti işi düzgün qura bilmədi. Bu da onu göstərdi ki, Azərbaycan mediasının xəbərçilik səviyyəsi arzuolunan səviyyədə deyil”.

Qulu Məhərrəmli qeyd etdi ki, bizim ölkəmizdə baş verən hadisə ilə bağlı həqiqəti xarici mətbuatdan öyrənməyimiz çox təəssüf doğuran haldır: “Bu, faciədir və artıq baş verib, hadisə haqqında doğru-düzgün məlumat vermək lazımdır. Bunu gizlətməklə, həlak olanların sayını azaltmaqla o insanların yaxınlarının, qohumlarının da mətbuata, mediaya, hökumət qurumlarına inamı sarsılır. Məlumatları cəmiyyətdən gizlətməyin nə mənası var, bu, onlara nə verir? Bizim bunları xarici mətbuatdan eşitməyimiz, xarici ölkələrin dövlət adamlarının başsağlığı verməsindən sonra bu məlumatları açıqlamaq böyük biabırçılıqdır. Dərhal qərargah yaradılmalı idi, məlumat verilməli idi. Bu, dünyada qəbul olunmuş qaydadır. Təəssüf ki, bunların heç biri olmadı”.

Türkiyə cəmiyyətinin Soma faciəsində sərgilədiyi duruşun Azərbaycan cəmiyyətində müşahidə olunmadığına toxunan Məhərrəmli bildirdi ki, Türkiyə cəmiyyəti yetərincə təşkilatlanmış, güclü cəmiyyətdir: “Azərbaycan cəmiyyəti təəssüf ki, o dərəcədə müqavimət hissinə, təşkilatlanma qabiliyyətinə malik deyil. Bu səbəbdən insanlar sadəcə, sosial şəbəkələrdə fəaldırlar. Ancaq bu mötəbər bir yer deyil. Cəmiyyətin həmrəyliyi ifadə olunmalı idi”.

❑ Nərgiz LİFTİYEVA



# “Zərərçəkənlərə maddi yardım göstərəcəyik” - Mehbalıyev xəstəxanada

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbəri, deputat Səttar Mehbalıyev “Günəşli” yatağının 10-cu dərin dəniz özülündə baş vermiş yanğın və qəza nəticəsində xəsarət alanlara Mərkəzi Neftçilər Xəstəxanasında baş çəkib.**

APA-nın məlumatına görə, S.Mehbalıyev xəstələrin səhhəti ilə maraqlanıb, həkimlərdən məlumat alıb. Səttar Mehbalıyev açıqlamasında bildirib ki, xəstələrə AHİK tərəfindən yardım göstəriləcək: “Xəstələr əgər sanatoriyalarda dincəlmək istəsələr, biz onlara şərait yaradacağıq. Zərərçəkənlərə və itkin düşənlərin ailələrinə maddi yardım göstərəcəyik. Yeni bütün imkanlarımızı səfərbər edib bu insanlara köməklik göstərəcəyik”.

Qeyd edək ki, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, səhiyyə naziri Oqtay Şirəliyev, SOCAR rəhbərliyi də xəstələrə baş çəkib.

Xatırladaq ki, qəzada xəsarət almış 8 nəfər hazırda Mərkəzi Neftçilər Xəstəxanasındadır. Onların vəziyyətləri qənaətbəxşdir.

# Yeni il yeni bahalaşma gətirəcək

## Ekspert: “Qiymət artımının daha sürətlə və daha kəskin şəkildə artacağı ehtimalı var”

**Yeni ilin gəlişinə bir neçə gün qalıb. Amma artıq dükan-bazarlardan ərzaq məhsullarının bahalaşması xəbərləri gəlir. Hər il olduğu kimi, ənənəvi olaraq bayram ərəfəsində qiymətlər artır və bayramdan sonra da o şəkildə davam edir. Hökumət nə qədər qiymət artımı ilə mübarizə apardığını desə də, son bir ildəki bahalaşma hər bir ailənin büdcəsində hiss edilməkdədir. Ekspertlərin rəyi belədir ki, Yeni il ərəfəsi bahalaşma daha aydın şəkildə hiss ediləcək. Çünki Yeni il bayramından əlavə qiymət artımını şərtləndirən digər amillər də var.**



Bunlardan biri manatın yenidən dəyərdən düşməsi ehtimalı, digəri qış mövsümünün gəlməsi ilə əlaqədardır. Başqa bir səbəb də Rusiyanın Türkiyədən idxal etdiyi meyvə-tərəvəz məhsullarına embarqo qoyması və Azərbaycandan kənd təsərrüfatı məhsullarının idxalını artıracağı ehtimalıdır.

İqtisadçı ekspert Natiq Cəfərli də “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bu il qiymət artımını şərtləndirən amillər var: “Təəssüf ki, bu Azərbaycanda bir ənənə halını alıb. Hər il bayram öncəsi qiymətlər kəskin şəkildə artır. Təbii ki, buraya mövsümi səbəblər də daxildir. Qış aylarında hər zaman Azərbaycanda ərzaq məhsullarının bahalaşması qeydə alınırdı. Bu il isə başqa əlavə səbəblər də əlavə olunub. Devalvasiya ilə bağlı ölkəyə gətirilən malların qiymətinin artması prosesi gedir. Rusiyanın Türkiyə məhsullarına qadağa qoymasından sonra Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiyaya getməsi ehtimalından danışılır. Qiymətlərdə artıq müəyyən dərəcədə dəyişiklik olub. Bütün bu məsələləri nəzərə alsaq, Azərbaycanda Yeni il öncəsi qiymət artımının daha sürətlə və daha kəskin şəkildə artacağı ehtimalı var”.

Natiq Cəfərlinin sözlərinə görə, bu il əhalinin alıcılıq qabiliyyətinin azalması bahalaşmanın qarşısını alan yeganə amil olacaq: “Ancaq burada bir məsələ var ki, bu il yeni situasiyalardan biri ondan ibarətdir ki, Azərbaycanda iqtisadi aktivlik ildən-ilə zəifləyir, insanların gəlirləri azalıb, iş yerlərinin azalması prosesi gedir. Bütün bunlar alıcılığa da mənfi təsir edir. Yəni qiymət artımının da bir həddi var. Çox yüksək həddə qiymət artımı olsa, alıcılıq qabiliyyətinin aşağı olması iş adamlarının məhsullarını sata bilməməsi il nəticələnəcək. Ona görə də, yeganə olaraq bu amil qiymətlərin kəskin şəkildə artmasının nisbətən qarşısını alır. Ona görə də düşünürəm ki, bu il bu iqtisadi aktivliyin zəifləməsi, gəlirlərin azalması qiymət artımının qarşısını alan əsas səbəblərdən olacaq. Lakin Yeni il öncəsi qiymət artımının şahidi olacağıq. Hazırkı proseslər də onu göstərir ki, manata olan basqılar artır. Ola bilər ki, yenidən məzənnə dəyişikliyi olsun. Əgər manat yenidən ucuzlaşsa, o zaman qiymət artımını çox kəskin şəkildə hiss edəcəyik. Hökumət nə qədər elan etsə də ki, ərzaq məhsullarının böyük əksəriyyəti öz istehsalımızdır. Lakin reallıq elə deyil. Azərbaycanda istehsal olunan ərzaq məhsullarının bir çox hissəsi xaricdən gətirilən xammal hesabına istehsal olunur. Xammal xaricdən alındığı üçün qiymətlərin artacağı da qaçılmazdır. Xüsusən, gündəlik istifadə olunan çay, qənd, şəkər tozu, yağlar, düyü və sair. Əgər manatın dəyərdən düşməsi də baş versə ciddi şəkildə qiymət artımı olacaq”.

Ekspert onu da qeyd etdi ki, Türkiyənin Rusiyaya ixrac etdiyi məhsullara embarqo qoyulmasının ardından bu məhsulların Azərbaycana ixracı arta bilər və bu, qiymətləri tənzimləyəcək amillərdən biri ola bilər: “ Həmin məhsulların Azərbaycan üzərindən, Azərbaycan məhsulları adı ilə Rusiyaya ötürülməsi gündəmdədir. Rusiya tərəfi də bu məsələni nəzərə alır və sərhəddə məhsullar diqqətlə yoxlnılır. Əgər belə bir hal baş versə, bu Azərbaycan məhsullarının da ixracına müəyyən məhdudiyyətlər gətirə bilər. Türkiyə mallarının Azərbaycan bazarına daha çox gətirilməsi də gündəmdədir. Əgər bu baş versə bəzi məhsulların bahalaşmasının qarşısını alacaq. Son məlumatlar onu göstərir ki, Türkiyə fermerləri əsasən Asiya bazarlarına çıxmağa üstünlük verirlər. Rusiya bazarını Asiya bazarı ilə əvəz etməyə çalışırlar. Səudiyyə, Qətər və Oman kimi ölkələrlə artıq razılaşmalara başlanıb.

Mövsümi amillərə gəlincə, payızın son aylarında həmin ilin məhsulları bitir. Yeni məhsul çıxana qədər məhsul qıtlığı yaranır və bu amil bahalaşmaya səbəb olur. Azərbaycanda illərdir bu problem həll edilmir, iri soyuducular, məhsulları saxlamaq üçün xüsusi yerlər tikilmir. Bu baxımdan yay məhsullarının qışa qədər saxlanılması sistemi hələ də tam oturuşmayıb. Ona görə də, bu mövsümi amillər qiymət artımına təsir edir”.

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Prezidentlərin görüş tarixi dəqiqləşdi, bəs görüş yeri?

## Siyasi təhlilçilər ən uzun pauzadan sonra gerçəkləşəcək bu təmasdan da real nəticə gözləmir; rusiyalı politoloq: "Prezidentlər heç bir planı müzakirə etməyəcək..."

**Azərbaycan və Ermənistan prezidentləri - İlham Əliyev və Serj Sərkisyanın növbəti görüşünün təzə tarixləri açıqlanıb - dekabrın 15-i və ya ortası. ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik isə özünün twitter səhifəsində birbaşa təmasın dekabrın sonunda reallaşa biləcəyini ümid etdiyini yazıb.**

Lakin təmasın harada, hansı şəhərdə baş tutacağı haqda hələ ki, heç nə deyilmir. Dekabrın ortalarında ən mühüm tədbir kimi Avropa Birliyinə (AB) üzv ölkələri Şurasının illik toplantısı gözlənilir. Əgər Azərbaycan və Ermənistanın dövlət başçıları həmin tədbirə qonaq qismində dəvətlidirlərsə, o zaman güman eləmək olar ki, görüş AB-nin sammiti çərçivəsində baş tutacaq.

Lakin bunlar hələ ki, ehtimaldır. Bəlkə görüşü elə Rusiya prezidenti Vladimir Putin təşkil edəcək? Hərçənd, bu dəqiqə Türkiyə ilə münasibətlərinin gərginləşməsindən dolayı Kremlin tamam başqa qayğıları var. Lakin Dağlıq Qarabağ məsələsində əsas patronaj ölkə olduğunu nümayiş etdirmək üçün Moskva bu addıma gedə də bilər.

Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa təmasın bir ildən çoxdur reallaşa bilməməsi - bu isə ən böyük fasilə sayılır - sözsüz ki, həm də Qarabağ məsələsinə beynəlxalq diqqətin azalması, onun dünyanın gündəmində daha arxa plana keçməsi ilə bağlıdır.

Bir sıra siyasi müşahidəçilər hesab edir ki, üstəlik, Ankara-Moskva münasibətlərinin qəlizləşməsi nizamlama prosesini bir az da qəlizə salacaq. Çünki Qarabağ ixtilafının həlli Azərbaycanın, onunla birgə isə Türkiyənin regionda daha da güclənməsinə gətirə bilər.

***

Rusiyalı politoloq, Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun elmi əməkdaşı **Aleksandr Skakov** hesab edir ki, hazırda Dağlıq Qarabağa dair heç bir sülh planı aktual və real deyil.

"İndi yeganə o şey haqda danışmaq olar və Minsk Qrupu da buna çalışa bilər ki, münaqişə zonasında təhlükəsizlik tədbirləri gücləndirilsin, bundan ötrü təmas xəttinə kifayət qədər sayda müşahidəçi göndərilsin və cəbhə xəttində təxribatların qarşısı alınsın", - deyə o, erməni nəşrinə müsahibəsində qeyd edib.

Bu xüsusda politoloq qarşıdakı Əliyev-Sərkisyan görüşündən dolayı pessimistdir və ondan nəticə gözləmir: "Fikrimcə, görüşdə heç bir plan müzakirə edilməyəcək".

Rusiya ilə münasibətləri pisləşən Türkiyənin Qarabağ konfliktinə təsirlərinə gəlincə, Skakov bu təsirin hərbi qarşıdurma həddinə gəlib çatacağına inanmadığını söyləyib: "Türkiyə çətin ki, buna getdin. Məncə, türklər indi Qarabağ münaqişəsinin maksimum şəkildə sənginəsində maraqlıdırlar və vəziyyəti gərginləşdirməyə getməyəcəklər. Aydındır ki, Türkiyə ilə Rusiya arasında hərbi konfliktdən söhbət gedə bilməz. Ankara-Moskva gərginliyinin erməni-Azərbaycan münasibətlərinə təsirinə gəlincə, ümid edirəm ki, bundan qaçmaq mümkün olacaq..."

***

Qarabağ məsələsində bu ildə irəliləyişin olmaması növbəti ildə də hər iki tərəfdən, o cümlədən mülki əhali arasında yeni canlı itkilər deməkdir. Xüsusən də düşmən tərəf hər il daha çox işğalçı əsgər və zabitini itirməkdədir. Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı son bəyanat bu xüsusda öz-özlüyündə çox şey deyir.



Aleksandr Skakov

"Ermənistan kütləvi informasiya vasitələrinin son 11 ay ərzində ümumilikdə 63 erməni hərbçisini ölü olaraq itirməsi, onlardan 33 nəfərinin döyüş itkisi olması ilə bağlı yaydığı xəbərlər yalnız gülüş doğurur. Bu rəqəmlərə inanmaq və onları ciddiyə almaq sadəlövhlük olardı. Çünki açıqlanan statistika həqiqəti əks etdirmir və mövcud durumu tamamilə təhrif edir", - deyə açıqlamada qeyd olunur.

Bəyanatda daha sonra deyilir: "Erməni mətbuatının bu xəbəri yalnız cinayətkar rejimin marağında olmaqla onun rəhbərliyini qane edir və onsuz da gərgin vəziyyətdə olan erməni ictimai rəyinin sakitləşdirilməsi məqsədini güdür. Belə ki, təkcə bu il ərzində hətta erməni rəsmi informasiya saytlarının, qeyri- hökumət və əsgər anaları təşkilatlarının, eləcə də Ermənistanın müxalifyönümlü mətbuatının yaydığı rəqəmlərə istinad etsək belə, düşmən ordusundakı itkilərin sayının dəqiqliyinə qismən yaxın olan vəziyyət yarana bilər.

Reallıqda isə Ermənistan tərəfi döyüş itkilərinin sayını ən azı iki dəfə azaldır. Məlumdur ki, ermənilər Dağlıq Qarabağdan olan hərbi qulluqçuların, silahlandırılıb zorla səngərlərə yerləşdirilən mülki əhalinin, eləcə də Yaxın Şərqin müxtəlif qaynar nöqtələrindən topladıqları muzdluların cəbhədə Azərbaycan əsgəri tərəfindən məhv edilməsi faktlarını gizlədirlər. Bu itkiləri də hesablasaq, il ərzində Ermənistan tərəfinin cəbhədə yüzdən artıq itki verməsi bəlli olur".

***

Sözsüz ki, işğalçı tərəfin canlı və texniki itkilərini daha artırmaq, öz itkilərini isə minimuma endirmək üçün Azərbaycan dövləti üzümüzə gələn ildə də öz hərbi qüdrətini, ordusunun döyüş hazırlığını və hərbi parkını gücləndirməkdə davam edir. Bu sahələrdə Azərbaycana ən mühüm köməyi isə qardaş ölkə, NATO üzvü Türkiyə göstərə bilər.

Böyük ehtimalla, 2016-ci ildə də Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı genişləndiriləcək. O sırada Rusiyanın və Ermənistanın xoşuna gəlsə də-gəlməsə də qardaş ölkə ilə birgə hərbi təlimlər yəqin ki, davam etdiriləcək.

Bəzi skeptik təhlilçilərə görə, "Su-24" təyyarəsi ilə bağlı insidentdən sonra Rusiyaya görə Azərbaycan Türkiyə ilə hərbi müttəfiqliyini çox qabartmamalı, hətta ortaq hərbi təlimlərin sayını azaltmalıdır. Ancaq "qorxan gözə çöp düşər". Əgər Ermənistan öz təbii müttəfiqi ilə hərbi əməkdaşlığı ilbəil dərinləşdirirsə, biz niyə yeganə təbii müttəfiqimizlə əlaqələri sıxlaşdırmaqdan çəkinməliyik?

Onu da unutmaq olmaz ki, Azərbaycan Rusiyanın sadiq silah alıcılarından biridir - nəyin hesabına ki, Rusiya büdcəsi hər il milyardlar qazanır. Şimal qonşumuz ən azından buna görə Azərbaycan-Türkiyə hərbi əməkaşlığından qıcıqlana bilməz, əgər Azərbaycanı silah alıcısı kimi də itirməyi arzulamırsa...

# Erməni mövqelərinə 110 atəş zərbəsi endirilib



**Erməni silahlı bölmələri dünən cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 105 dəfə pozub.**

Müdafiə Nazirliyinin məlumatına görə, Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Novruzlu, Şuraabad, Yusifcanlı, Qaraqaşlı, Mərzili, Şıxlar, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 110 dəfə atəş zərbəsi endirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015





# Azərbaycanda İŞİD sayağı cinayətlər niyə artıb?

**Dəyanət Rzayev:** "İnsanlar maddi baxımdan elə vəziyyətdədirlər ki..."
**Adil Qeybulla:** "Kəsilən əl-qolu bərpa eləmək olar, əgər..."

**Biri baş kəsir, digəri özünü yandırır, başqa biri isə borca görə kiminsə qollarını balta ilə doğrayır. Artıq bu cür amansız intiharlar, cinayətlər haqqında hər gün eşidirik. Ən pisi isə odur ki, bu cür amansızlıqlar, qəddarlıqlar daha pis və qabarıq formada artmağa başlayır. Sanki cəmiyyətdə qəddarlaşma prosesi gedir.**

Son olaraq noyabrın 28-də Zaqatala şəhər sakini, 26 yaşlı Vüsal Bəşirovun borca görə hər iki qolunu bilək nahiyəsindən kəsiblər. Bu cür amansızlıqları daha çox İŞİD terror qruplaşmasının videolarında görürdük. Bir gün borca görə bir vətəndaşın digərinin qollarını balta ilə amansızlıqla kəsməsi insanlarda bir qorxu, xof yaradır.

İnsanların bu qədər qəddar, amansız olmasına səbəb nədir?

Psixoloq Dəyanət Rzayev internetdə İŞİD tərəfindən yayımlanan bu cür videoların cəmiyyətdə qəddarlığın, cinayətlərin artmasında rol oynadığını dedi: "Əgər kimsə kimsədən pul alıb qaytarmırsa, onun əllərini kəsmək qəddarlıqdan başqa bir şey deyil. Bunun üçün hüquq-mühafizə orqanlarına müraciət etmək olar ki, dələduzluq, fırıldaqçılıq var. Amma bu gün insanlar maddi baxımdan elə vəziyyətdədir ki, onlar emosional, psixopatik bir hərəkət edirlər. Sonuncu hərəkət də bu cürdür. Ola bilər ki, əlləri kəsməzdən əvvəl polisə və digər yollara əl atıb və çalışıb ki, pulunu sakit yolla alsın. Amma əlacsız qalıb. Amma kiminsə əlini kəsən adama heç bir haqq yoxdur. Ola bilər ki, həmin şəxs emosional olaraq həyəcan, təşviş yaşayıb və gedib həmin şəxsin əllərini kəsib. Əl kəsmək, qol kəsmək çoxalıb. İnternetdə İŞİD-in baş kəsmək, əl kəsmək videolarına baxıb təsirlənirlər. Bunlar insanların şüur altına həkk olunur. Diqqət etsəniz görərsiniz ki, bir müddət oldu ki, hamı özünü asırdı, daha sonra özlərini yandırırdılar. Yəni bunlar davranış modelidir. Baş kəsmək də insanın şüur altına həkk olunub. Televiziyalarda, saytlarda göstərirlər ki, kimsə özünü yandırdı. İnsanlar buna baxır başlayır sıxıntıya düşən kimi bu yola əl atmağa. Cinayət də bu cürdür. Bir zamanlar baş kəsirdilər, indi isə əl-qol kəsirlər. Ola bilər ki, Zaqataladakı gəncin əllərini kəsən şəxs də haradasa belə bir videoya baxıb və bu onun şüur altına həkk olunub və o modeli şərait yaranan kimi reallaşdırıb. Əgər əl kəsməsəydi başını kəsərdi".

Maraqlıdır, zərərçəkmiş şəxsin əllərini bərpa etmək olmazdımı? Ümumiyyətlə, Azərbaycanda orqanların bərpası əməliyyatları həyata keçirilirmi?

Tibb elmləri doktoru, professor Adil Qeybulla bildirdi ki, bədəndən ayrılmış orqanın saxlanması düzgün həyata keçirilərsə, onun iki saat ərzində bərpası mümkündür: "Bədəndən ayrılmış, qan təchizatı dayanan əzələlərin, sümüklərin, bəzi orqanlar əgər aşağı temperaturda saxlanılarsa, iki saat ərzində onları bərpa eləmək olar. Əgər bu soyuq, buzda gətirilibsə, bir neçə saat sağ qalma ehtimalı olsun. Aşağı temperaturda toxumaların oksigen tələbatı aşağı olduğundan, bədənin ayrılmış hissələrinin, xüsusən də yuxarı və aşağı ətrafların, yəni əl və ayaqların travmatik ayrılması baş verərsə, ayrılan, yəni qan təchizatını itirmiş hissə buzda saxlanılmalıdır ki, onun oksigen tələbatı xeyli aşağı düşsün. Bu zaman onun yaşam dövrü və toxumaların bərpa imkanları bir neçə saat uzana bilir. Bu cür situasiyalarda xəstəni hansısa bir xəstəxanaya onun ayrılmış orqanı ilə birgə transfer edəndə yolda bu faktor nəzərə alınmalıdır. Bundan sonra bərpa prosesi, yəni replantasiya gedir. Replantasiya dünyanın hər yerində aparılır. Amma yenə də deyim ki, ilkin olaraq vaxt müddəti, həmin orqanın saxlanma qaydaları düzgün həyata keçibsə, bu mümkün olur. Əgər düzgün həyata keçməyibsə, həyata keçirməyin mənası olmur".

❑ Günel MANAFLI

# Prorektorun qətlində "MTN izi" - sensasion təfərrüatlar

## 2011-ci ildə öldürülən Tariyel Əhmədovun qətli üzərindən sirr pərdəsi çəkilir; qaçaq müəllim sensasion iddialar səsləndirdi

**Eldar Mahmudovun tutduğu vəzifədən çıxarılması onun çetesinə bağlı olan bir sıra cinayətlərin açılması ehtimalını artırıb. İllərlə bağlı qalan müəmmalı cinayətlərin üstünün açılmasına ümid yaradıb. Belə cinayətlərdən biri də 2011-ci il sentyabrın 16-da Yasamal rayonunda baş verib. Həmin gün Yasamal rayonu, Şərifzadə küçəsi 8 ünvanındakı stadionda Təfəkkür Universitetinin prorektoru olan Tariyel Əhmədovun meyiti aşkar olunmuşdu.**

Prorektorun meyiti Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi Yasamal rayon şöbəsində müayinə olunarkən məlum olmuşdu ki, T.Əhmədovun kəllə sümüyündə sınıqlar var. Yasamalın baş məhkəmə tibb eksperti Namiq Məmmədovun sözlərindən belə aydın olmuşdu ki, prorektorun kəllə sümüyündəki sınıqlar küt alətin təsirindən əmələ gəlib.

Həmin dövrdə professorun qətlinin onun çalışdığı universitetlə əlaqəli ola biləcəyi haqda xəbərlər vardı. Bildirilirdi ki, T.Əhmədov universitetin 3 həmtəsisçisindən biridir. Onun ölümü avtomatik olaraq universitetdəki payının digər iki həmtəsisçiyə keçməsi demək idi. Hələ o dövrdə T.Əhmədovun ölümündə MTN izinin olması ilə bağlı məlumatlar vardı. Bildirilirdi ki, digər iki həmtəsisçidən birinin MTN-də çox güclü dayağı var. Həmin dayaqla həmtəsisçi qohumluq əlaqələri birləşdirir. Lakin bunu o dövrdə kimsə ucadan deməyə çəkinirdi. Bu haqda daha çox pıçıltı ilə danışmağa üstünlük verirdilər. Qatilin iz buraxmadan prorektorun həyatına son qoyması da bu versiyanın doğruluğuna inamı artırırdı. Hadisə yerindən cinayətdə istifadə olunan alət də tapılmamışdı. Qatilin ərazinin dörd bir tərəfindəki küçələrdə quraşdırılmış "Təhlükəsiz Şəhər" kameralarının əhatə dairəsindən yayına bilməsi də qətlə əvvəlcədən hazırlıq görülməsinə dəlalət edirdi.

Digər tərəfdən prorektor T.Əhmədovun neçə illər ərzində hər səhər saat 5-də həmin stadiona gedib orada məşq etməsini çox az adam bilirmiş. Bu şəxslər sırasında yaxınları ilə yanaşı universitetdəki ətrafı da olub.

Sağlam həyat tərzi yaşayan 69 yaşlı professorun qohumları onun hansısa xəstəlikdən ölməsinə şübhə etdiklərini də açıqlamışdılar. Mərhumun qohumu Eldar Cəbrayılov demişdi ki, prorektor çox ehtiyatlı adam olub:

"O, ehtiyatlı adam idi. Həmişə pilləkən düşəndə qolumdan tuturdu ki, yavaş ol, yıxılarsan. Bu hadisəni eşidəndə çox təəccübləndim". O, əlavə etmişdi ki, prorektorun hər hansısa xəstəlikdən şikayəti olmayıb: "Qan təzyiqi hamıda olur. Amma ondan da şikayəti yox idi".

Maraqlı məqamlardan biri də hadisə yerində prorektorun meyitini müayinə edən zaman üzə çıxmışdı. İstintaqçılar qatilin onun şəxsi əşyalarını götürmədiyini müəyyən etmişdilər. Bu məqam qətli prorektorun şəxsi əşyalarını ələ keçirmək istəyən təsadüfi şəxsin törətməsi versiyasını da aradan qaldırmış olurdu. Deməli, istintaqçılar qətlin motivini digər bir yerdə axtarmalı idilər.

"Harada axtarmalı" sualı 4 ildir ki, ortadadır və yəqin ki, bu suala istintaqçılar cavab axtarıblar. Fakt odur ki, bu gün nəticə yoxdur...

Qətldən sonra Təfəkkür Universitetinin digər prorektoru Rəhim Hüseynov "Yeni Müsavat" əməkdaşına demişdi ki, təmsil etdiyi ali məktəbin bu qətllə bağlı xüsusi versiyası yoxdur: "Yaşlı adam idi, kimsə ilə də düşmənçiliyi yox idi".



Müəmmalı qətldən 4 il ötüb. Artıq Yasamal rayon Prokurorluğunda başlanmış cinayət işinin istintaqı da dayandırılıb. Prorektorun qətlinə dair Cinayət Məcəlləsinin 120-ci - qəsdən adam öldürmə maddəsi ilə başlanmış cinayət işi üzrə dindirilənlərdən biri də Təfəkkür Universitetinin rektoru Müşfiq Atakişiyev olub.

Mərhumun oğlu Zaur Əhmədov isə atasının öldürülməsi ilə bağlı konkret fikir söyləməmişdi: "Hər gün orada idman edirdi. Bizim kiminləsə düşmənçiliyimiz və ya hansısa bir konfliktimiz olmayıb. Polis və prokurorluq işləyir, yəqin məsələni aydınlaşdırarlar".

Z.Əhmədov demişdi ki, atası ilə anası Şərifzadə küçəsi, 2a ünvanında yaşasa da, ailənin digər üzvləri başqa yerlərdə yaşayıb. Onun sözlərinə görə, atası və anası yayda Bilgəhdəki bağ evində yaşayıb. Hadisədən bir gün əvvəl atası bağ evindən Yasamaldakı evinə gəlib. Anası isə bağda qalıb.

"Yeni Müsavat" əməkdaşı həmin dövrdə mərhumun yas mərasimində olarkən mülki geyimli şəxslərin prorektorun sürücüsünü sorğu-sual etmələrinin şahidi olmuşdu. Mülki geyimlilər sürücüdən T.Əhmədovun son vaxtlar bu ünvanda kiminləsə görüşüb-görüşməməsi, ümumiyyətlə, görüşlərinin harada baş tutması ilə maraqlanırdılar. Bu sorğu-sualdan belə anlaşılırdı ki, hüquq-mühafizə orqanları mərhumun evində hadisədən əvvəl kənar şəxs və ya şəxslərin olması versiyasını da yoxlayırlar. Mərhumun oğlu isə qəzetimizə açıqlamasında qətldən sonra atasının yaşadığı evdən heç nə itmədiyini demişdi.

Təfəkkür Universitetinin sabiq müəllimi, 2011-ci ildə həbs olunmuş və sonradan azadlığa buraxılan, hazırda Almaniyada mühacir həyatı yaşayan Riyad Əliyev zaman-zaman prorektorun müəmmalı qətlini gündəmə gətirib. Sonuncu belə açıqlamanı qaçaq müəllim cumhuriyyet.az-a verib. R.Əliyev iddia edir ki, universitetin həmtəsisçisi, prorektor Tariyel Əhmədov rektor Müşfiq Atakişiyevin və digər həmtəsisçi Rahim Hüseynovun birgə qurduqları plana qurban gedib: "Universitetdə həmtəsisçi olan mərhum professor "Təfəkkür"də baş verən qanunsuz hallara qarşı çıxdığı üçün Müşfiq Atakişiyevlə və Rahim Hüseynovla aralarında ciddi narazılıq, fikir ayrılığı olub. Universitetin əsasnaməsinə görə, 2013-cü ildə rektorluq növbəsi həmtəsisçi Tariyel Əhmədova çatmalıydı. Belə olduğu halda isə təbii olaraq Müşfiq Atakişiyev və Rahim Hüseynov "ofsayt" vəziyyətinə düşəcəkdilər. Hələ rektor olmamışdan öncə aralarında belə ciddi insident yaşanmışdısa, deməli Tariyel Əhmədovun rektor olacağı halda Atakişiyevin nələrlə üzləşəcəyini düşünmək çox asandır. Bunu Müşfiq Atakişiyev və Rahim Hüseynov da çox gözəl bilirdi və Tariyel Əhmədovu hansı vasitə ilə olursa-olsun zərərsizləşdirmək lazım gəlirdi, bunu da tapdılar".

Riyad Əliyevin digər iddiası isə sabiq baş prokuror, mərhum Murad Babayevlə bağlıdır. Qaçaq müəllim iddia edir ki, vaxtilə açılmamış ölüm üzrə baş müstəntiq, sonradan baş prokuror vəzifəsinə qədər yüksəlmiş Murad Babayev Müşfiq Atakişiyevə qanunsuzluqlarını ört-basdır etməyə yardım edib. Murad Babayev dünyasını dəyişənədək Təfəkkür Universitetinin Hüquq fakültəsində kafedra müdiri vəzifəsində çalışıb, M.Atakişiyevə cinayətlərini ört-basdır etməkdə yardım edib: "Təfəkkür Universitetindən uzaqlaşmaq onun arzusuydu, amma alınmırdı. Murad Babayevin asılacağı vardı. Oğlu, birinci prorektorun, Rahim Hüseynovun oğlu ilə narkoman idilər. İldə bir dəfə onları qanlarını təmizləməyə Almaniyaya yollayırdılar. Bu bahalı prosedurdur. Bu prosedurların pulunu Rahim Hüseynov ödəyirdi. Ona görə də, Murad Babayev məcbur olurdu M.Atakişiyevin cinayətləri üzə çıxanda gedib minnətçi olsun və köhnə əməkdaşlardan, prokurorluqdan xahiş etsin".

❑ E.MƏMMƏDƏLİYEV

**P.S** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015

**Xalq artisti, Akademik Milli Dram Teatrının aktyoru Ramiz Novruz "Yeni Müsavat"a müsahibə verib. Redaksiyamızın qonağı olan aktyor əməkdaşımıza maraqlı və səmimi açıqlamalar verib. Müsahibəni təqdim edirik:**



# "Ulduz", "Əhməd haradadır?", "Görüş" filmləri çox sadəlövh filmlərdir"

## Ramiz Novruz: "Elə şeylər var ki, onu tamaşaçı bilməməlidir"

***- Ramiz bəy, yaradıcılığınızda son hansı yeniliklər var?***

- Hazırda Qoqolun "Müfəttiş" əsəri əsasında maraqlı tamaşa hazırlayırıq. Orda bələdiyyə rəisi obrazındayam. Bu yaxınlarda iki seriala çəkilmişəm, ikisi də Rövşən İsaka məxsusdur. Bir dəfə efirdən demişdim ki, seriala çəkilməyəcəm, çəkilsəm, Ramiz İsakın serialında olacam. Çünki o, işinə kifayət qədər ciddi, məsuliyyətli yanaşan adamdır. Serial marafon kimidir, gərək sona qədər saxlaya biləsən, əvvəldən axıradək maraqlı olmalıdır. O mənada demişdim ki, başqa seriallara çağırmasınlar.

Bu günlərdə Rövşən İsak yeni bir seriala başlayıb. Oğlum da çəkilib, bəyəniblər, sınaqdan yaxşı keçib. Təbii, arzulayardım ki, ata-oğul bur yerdə seriala çəkilək (gülümsəyir).

***- Oğlunuz Cavidan aktyorluq fakültəsini bitirsə də, hazırda müğənnilik fəaliyyəti ilə məşğuldur. Beləliklə həyatın nəbzini tutmağa çalışıb?***

- Aktyorluğu bitirəndən sonra "Cavad xan" filminə çəkildi. Orda Cavad xanın oğlanlarından birini, mən isə Sisianovu oynayırdım, yəni qarşı cəbhədə idik.

***- Aktyor olması sizin istəyinizlə idi?***

- Xeyr, öz istəyi idi. Uşaqlıqdan Ceyhun Mirzəyevin fanatı idi. Gecə-gündüz "Fəryad"a, "Ögey ana" ya baxırdı. Hətta bir dəfə zarafatla dedim ki, Cavidan, kimi seçərdin, məni, yoxsa Ceyhun Mirzəyevi, dedi ki, Ceyhun Mirzəyevi (gülümsəyir).

***- Hazırda çəkilən filmlərdə bir bəsitlik, qeyri-təbiilik müşahidə olunur. Sizcə, səbəb nədir?***

- Vəziyyət o qədər ümidsiz də deyil. Hazırda xeyli sayda istedadlı gənclərimiz var. Lakin siz düz deyirsiz, indi qeyri-peşəkarlar çoxalıb. Zamanında rejissor olmaq üçün Moskvada və digər yerlərdə təhsil alırdılar. İndi qeyri-peşəkarcasına çəkdiklərinin adını kino qoyub ekrana atırlar. Təbii ki, yüksək səviyyəli kino çox maddi vəsait tələb edir, bu böyük və bahalı işdir. İndi hamı tez qazanc istəyir, "bu dəqiqə çəkib elə tez də pulumu qazanım" deyə.

O dövrdə peşəkarlıq məsuliyyəti də böyük idi. İndi heç kəs heç kimin qarşısında hesabat vermir. Adını kino qoyaraq, nə istəyir çəkir.

Tutaq ki, "Ögey ana" filminin verdiyi emosional təsiri indiki filmlər verə bilmir. Lakin o dövr üçün bəsit filmlərimiz də olub. Məsələn, "Ulduz", "Əhməd haradadır?", "Görüş" filmləri mənim üçün çox sadəlövh filmlərdir. Yəni onları çox da dərin, böyük filmlər hesab etmirəm. Amma o filmlərdə niyyət və məsuliyyət hissi var. Hiss olunur ki, insanlar işlərinə vicdanla yanaşıb, yaxşı iş görmək istəyiblər. Məsələn deyirlər ki, "Leyli və Məcnun", "Koroğlu" filmi alınmayıb. Lakin ən azı orda "xaltura" yoxdur.

***- "Mən sizi dünyalar qədər sevirəm", "Cavid ömrü" filmlərindən sonra sizi kinoda görə bilmədik...***

- Ara-sıra çəkildim. Məsələn, "Alman klinikasına qeyri-rəsmi səfər" filmində baş rollardan birini oynadım. Rusiyanın tanınmış aktyorları da həmin filmdə iştirak edirdi. Sadəcə, filmin çəkilişləri bitdikdən sonra mövzu aktuallığını itirdi. Daha sonra "Sarı gəlin" filmində çəkildim. Film kifayət qədər ciddi və peşəkarcasına çəkilib. Sadəcə, mübahisəli məqamlar çox oldu. Yəni, elə məqamlar var ki, hazırda Azərbaycan tamaşaçısı onları rahat həzm edə bilməz.

***- Məsələn hansı məqamlar?***

- Qarşılıqlı əsirlərə olan münasibət məqamları. Hətta orda bir yer də var idi ki, əsir düşmüş ruhi xəstə erməni qızı geri qaytarılanda ermənilər körpünü keçən qızı bıçaqlayırlar. Əslində rejissor bunu ermənilərin vəhşiliyi kimi verməyə çalışmışdı. Amma niyəsə bəzi tamaşaçılarımız bunu mərdanə hərəkət kimi qiymətləndirdi. Beləliklə, filmi hələ ki, dayandırmalı olduq. Bundan sonra "Cavad xan" və rusların çəkdiyi dörd seriyalı filmə çəkildim. Orda çeçen komandirini oynadım.

***- Həzi Aslanov kinoda ilk obrazınız idi?***

- Deməzdim ilkdir, çünki ona qədər bir neçə dəfə kütləvi səhnələrdə və epizodlarda iştirak etmişəm.

***- Necə oldu ki, birdən-bir baş rol sizə həvalə olundu?***

- Biz teatrda tamaşa oynayırdıq. Bildirdilər ki, "Həzi Aslanov haqqında film çəkilir, kimsə istəsə gəlsin şəkillərini çəkək, sonra deməyin ki, bizi çağırmadılar". O dövrdə belə bir fikir formalaşmışdı ki, "kimlərin çəkiləcəyi məlumdur". Onlar Şahmar Ələkbərov, Rasim Balayev, Həsən Turabov, Həsən Məmmədov və sairə aktyorlar idi. Yalnız ara-sıra kimlərsə çəkilirdi. Biz də bu ümidlə getmədik. Lakin bir dəfə dublyaj redaksiyasına gedəndə bir şəkil çəkdirdim. Bir həftədən sonra məni çağırdılar...

Bu obrazdan sonra bəlkə də daha yaxşı, daha böyük obrazlarım oldu, lakin mənim vizit kartım Həzi Aslanov olaraq qaldı.

***- Hazırda teatrda vəziyyət necədir? Sanki məlum xoşagəlməz qalmaqallar səngiyib. Kənardan belə görünür, yoxsa reallıq başqa cürdür?***

- Vəziyyət səngiyib, sakitləşib. Deyim ki, əvvəl də ciddi, faciəvi, gərgin bir vəziyyət yox idi. Sadəcə, söz-söhbət şişirdilirdi. Hərdən yenə də bu cür hallar olur. Məsələn, bu yaxınlarda "Kərbəla" tamaşası qoyulmalı idi. Buna görə İrandan da rejissor dəvət olunmuşdu. Məşqlərə başlamaq istəyirdilər ki, mətbuatda yazılar çıxdı, "Paniranizm Azdramada". Məşqlər başlamamışdan tamaşa dayandı. Daha sonra birinin pyesdən, digərinin rejissordan xoşu gəlmədi, beləliklə rejissor da çıxıb getdi.

Teatrın hər addımı niyə mətbuata çıxarılır axı? Üstəlik bunu elə adamlar yazır ki, onların teatra heç bir dəxli yoxdur.

***- Aktyorun şəxsi həyatı gizli, yoxsa açıq olmalıdır ictimaiyyətə?***

- Daha çox gizlin qalması məqsədəuyğundur. Mən şəxsən istəmirəm ki, Nadir şahı, Cavad xanı oynayanda tamaşaçı zalda əyləşib firkiləşsin ki, onun ailəsində hansısa problem var idi, görəsən onun axırı nə oldu və s. Yaxud deməsinlər ki, aktyorlar dava edirdi, indi səhnədə bir yerdədilər, görəsən münasibətləri necə olacaq. Elə şeylər var ki, onu tamaşaçı bilməməlidir.



**"Prezident mükafatları olmasa, aktyorlar səfalət içərisində olarlar"**

***- Yəqin ki, bu günədək səhnədə qarşılaşdığınız, danışmaq istədiyiniz xeyli sayda əhvalat var.***

- Olub. Bizdə "Atabəylər" tamaşası var idi. Biz orda yaxşı qılınc döyüşdürürdük. Tamaşada tələbə yoldaşımla tərəf müqabili idim. Döyüş səhnəsinin ortasında mənim qılıncım qırıldı. İndi dayanıb qırılan qılıncıma, tərəf müqabilimə baxıram, bilmirəm ki, neyləyim. Çünki o anda hər bir hərəkətimiz tamaşaçıya gülməli görünə bilərdi. Qılıncı ayağımın altına atdım, başımı əydim dedim ki, vur! O da bağırdı. Zaldakılar əl çaldılar. Tamaşanı görənlər də var idi, bilirdilər ki, o səhnədə belə bir şey yox idi. Sonra bu hadisə Sumqayıtda da təkrarlandı. Bu dəfə isə rəqibimin qılıncı qırıldı. O da eyni hərəkətlə vəziyyətdən çıxa bildi...

Bir dəfə tamaşada məni "asırlar". Deyirlər ki, son sözünü de, dedim ki, "la-ilahə-illəllah". Gördüm ki, ipi boynuma keçirən adam nəsə ipi keçirə bilmir. Fikirləşdim, bu bir qədər də davam etsə, tamaşaçılar güləcək. Dedim, "min ildir adam asırsız, adam asmağı da bilmirsiz". Sən demə "son sözünü de" deyən adam səhnəyə gecikdiyi üçün onu başqası deyib. Mən də son sözümü demişəm, bu dəfə gecikən aktyor gəlib çıxır səhnəyə və deyir ki, "qoy son sözünü desin". Dedim ki, "ağsaqqal dedim də son sözümü, əl çək də". Yəni əhvalatlar çox olub (gülür)

***- Özünüzü dramaturq və rejissor kimi də sınamısız...***

- Son illərdə hər bir aktyora imkan verildi ki, özünü AMDT-da sınaya bilsin. Gənc Tamaşaçılar Teatrı, Gəncə və bir sıra digər teatrlardan çoxlu sayda aktyorlar axışdı. Eyni zamanda rejissorlar da özlərini sınadı. Teatrın aktyoru Ramiz Novruz da istədi ki, tamaşa qoysun, ona da şərait yaradıldı. Hazırladığım "Silindr" tamaşası deyilənə görə çox maraqlı alınıb. Bu tamaşaların hamısı teatrın daxili imkanları sayəsində baş tutub. Halbuki, mətbuatda yazırdılar ki, tamaşaya 80 min pul xərclənib, bu pullar hara gedib? 80 min yalnız kinoya ayrıla bilər. Teatr tamaşasına bu qədər pul xərclənmir. Ən bahalı "Teleskop" tamaşası olub, ona da 30 min pul ayrılıb, vəssalam. Buna səbəb isə o idi ki, rejissor, rəssam xaricdən gətirilmişdi.

***- Tamaşaçılar sizi komik obrazda da gördü. Daha çox hansı ampluada özünüzü rahat hiss edirsiz; dram, yoxsa komik?***

- Hər ikisində.

***- Son zamanlar bir çox tanınmış aktyor və aktrisalarımızın səfalət içində dünyasını dəyişdiklərininin şahidi olduq. Kimidir günahkar, həmin aktyorların özlərimi, ya..?***

- Bu ağrılı sualdır. Ümumiyyətlə, sizə deyim ki, Azərbaycanda aktyor peşəsi ən çörəksiz, ən qazancsız sənətlər siyahısındadır. Bu mənada görürük ki, çox vaxt yaraşıqlı qızlar, oğlanlar teatra gəlmək istəmirlər. Azərbaycanda hələ qonorar sistemi qurulmayıb, teatrlarda maaşlar kifayət qədər azdır. Bəzən görürük qınayırlar ki, filan aktyor, aktrisa xəstələnmişdi, həmkarları ona əl tutmurlar. Axı bu aktyorların nəyi var ki, əl tutsun, özlərini güclə dolandırırlar. Tam səmimi deyirəm, prezident mükafatları olmasa, aktyorların 99 faizi səfalət içərisində olarlar. Xüsusən də serial, reklama çəkilməyən, az tələbat olan aktyor, aktirsalar.

Fikir versəz görərsiz ki, daha çox şikayət edənlərin əksəriyyəti rəsmi iş yeri olmayan, teatrdan gedənlərdir. Məsələn Nuriyyə xanım. O, kinostudiyanın aktrisası idi və studiya bağlandıqdan sonra demək olar ki, uzun illər ümumiyyətlə heç bir yerdə işləmədi.

***- "Mən azərbaycanlıyam" deyib bir cümlə ilə özünüzü necə təqdim edərdiz?***

- Heç kim ehtiyat vətən haqqında düşünməməlidir. Vətən bir dənə olur; pisdir, yaxşıdır, bu, bir dənədir, nə edirsən, bura üçün et. Fikrimcə, hər kəs öz işi ilə məşğul olsa, ən böyük azərbaycanlı o olacaq.

***- Məhəmməd Əmin Rəsulzadə obrazını da oynamısınız. Rəsulzadə sizin üçün kimdir?***

- "Biz heç nədən bayraq yapdıq və azadlığı dadızdırdıq insanlara". Məhəmməd Əmin Rəsulzadə mənim üçün heç zaman azadlığı görməyən millətə azadlığı dadızdıran insandır, o çox böyük siyasi xadimdir. Mən fəxr edirəm ki, Azərbaycan teleməkanında ilk dəfə Məhəmməd Əmin obrazını mən oynamışam.

**Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015

# Polkovnik generaldan ölkə rəhbərliyinə şikayət etdi

## Ağa Fəttahov: "Arzu Rəhimov peşəkar zabitləri təqaüdə göndərir…"

**Ehtiyatda olan polkovnik Ağa Fəttahov ölkə rəhbərliyinə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevə müraciət edib. Ağa Fəttahov müraciətin bir surətini də "Yeni Müsavat"a göndərib.**



Ağa Fəttahov müraciətində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzr Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimovu ittiham edib. Polkovnikin müraciətini bəzi ixtisarlarla təqdim edirik:

"Ramiz müəllim, Sizə müraciətim ondan ibarətdir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov bu qurumu uçuruma aparıb. Dəfələrlə KİV vasitəsilə Ali Baş Komandana, baş prokurora və milli təhlükəsizlik nazirinə müraciət eləmişəm. Ramiz müəllim, əgər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti uçuruma gedirsə, onda ordunun döyüş potensialı zəifləyir, ona görə də bu barədə mütləq Ali Baş Komandan xəbərdar olmalıdır.

Ramiz müəllim, Hərbi Komissarlıq Müdafiə Nazirliyi tərkibindən ayrılandan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yarandı və Arzu Rəhimov bu qurumun rəisi təyin olundu. Arzu Rəhimov bizə bildirdi ki, xidmətinizi davam etdirin və birgə bu qurumu yüksək səviyyəyə çatdıraq. Biz də razılaşdıq. 1 ay keçdikdən sonra Arzu Rəhimov 1000-ə yaxın peşəkar mülki işçini heç bir səbəbi olmadan işdən azad elədi. Bununla da qurumu, demək olar ki, iflic vəziyyətə saldı. Arzu Rəhimovun gəlişindən 6 ay sonra, yəni 2012-ci il avqustun 3-də müşavirədə 14 nəfər peşəkar zabiti ayağa qaldırıb bildirdi ki, siz yaş dövrü ilə əlaqədar təqaüdə çıxırsız. Təqaüdə çıxarılan zabitlərin 80 faizi Əfqanıstanda və Qarabağda döyüşən zabitlər idi.

Ramiz müəllim, Hərbi Nizamnaməyə uyğun olaraq zabit polkovnik vəzifəsindədirsə və polkovnik rütbəsini çoxdan almalıdırsa, onu o vaxt təqaüdə göndərirlər ki, o tutduğu vəzifəni icra eləyə bilmir. Dövlət bizi oxutdurub ki, biz onun keşiyində duraq, özü də müharibə gedən ölkədə, Arzu Rəhimov isə peşəkar zabitləri təqaüdə göndərir. Bizdən sonra yerimizə qeyri-peşəkar zabitləri götürür. Hansılar ki, vaxtilə Müdafiə Nazirliyi və Sərhəd Qoşunlarından qovulmuş zabitlərdir.

Sizin əlinizdə səlahiyyət var, bu faktları yoxlaya bilərsiz. İki dəfə Arzu Rəhimova müraciət elədim ki, məni geri qaytarsın, mənim peşəkar zabit kimi evdə oturan vaxtım deyil, o isə qəbul eləmədi. Əgər yoxlasanız, bizdən sonra bütün hərbi nizamnaməyə uyğun olmayan zabitləri işə götürüb. Çünki onlardan ötrü xahiş eləyənlər var. Kimisi Milli Məclisdən, kimisi prokurorluqdan, kimisi də başqa orqandan xahiş edib. Biz peşəkar zabitlərin isə göydə Allahdan, yerdə isə Ali Baş Komandandan başqa heç kimi yoxdur.

Ramiz müəllim, mən Arzu Rəhimov barədə məsələ qaldırandan sonra mənə bir neçə dəfə anonim şəraitdə yaxınlaşanlar olub. Birinci dəfə yaxınlaşan mənə dedi ki, Arzu Rəhimv SHXÇÜDX idarələrinin təmirinə ayrılan pulları şişirdilmiş formada göstərib. Məsələn:

1) Sumqayıt şəhərinin şöbəsinə 3 mln. manat,

2) Nizami Bakı idarəsinin tikilməsinə 3 mln. manat,

3) Ağsu rayonunun Miqrasiya İdarəsinin balansında olan binanı qeyri-qanunsuz SHXÇÜDX balansına keçirilib və onun təmirinə 7 mln. manat pul xərclənib.

İkinci dəfə anonim yaxınlaşan şəxs bildirdi ki, bəs vaxtilə Hərbi Komissarlıqdan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində keçən bütün şəxs heyətin adına kartlara pul keçirilmişdi. Arzu Rəhimov bu pulları mənimsəyib. Kartlardan pullar çıxarılıb. Həmçinin, Arzu Rəhimov göstəriş verib ki, bütün şöbələr, şöbə rəislərinin hesabına təmir olsun. Özü isə həmin şöbələrə ayrılmış pulu mənimsəyib. Həmçinin, həmin anonim şəxs bildirdi ki, Arzu Rəhimov bu yaxınlarda Ukrayna dairəsinin yanında dəyəri 3 milyon manat olan villa alıb".

Müraciət müəllifi A.Rəhimovun qanunsuzluqları barədə məlumatları çatdırmaq üçün onun qəbul edilərək dinlənilməsini istəyib.

***P.S.** Qarşı tərəfin də mövqeyini dərc edə bilərik.*

❑ **E.HÜSEYNOV**


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34




## Biləsuvardakı avtoqəzada bir ailə məhv oldu

**Dünən Ələt-Astara avtomobil yolunun 110-cu kilometrliyində - Biləsuvar rayonu ərazisində dəhşətli yol qəzası baş verib. Virtualaz.org saytının Şirvan bürosunun əldə etdiyi ilkin məlumata görə, qəza nəticəsində bir ailənin 4 üzvü hadisə yerindəcə həlak olub.**

Belə ki, "VAZ-2115" markalı "Jiquli"nin benzindaşıyan "SHACMAN" markalı avtosisternlə toqquşması nəticəsində minik maşınının sərnişinləri - Biləsuvar rayonunun Təzəkənd kənd sakinləri 1986-cı il təvəllüdlü Tərlan Bayramov, onun 1986-cı il təvəllüdlü həyat yoldaşı Günel Bayramova və qızları 2010-cu il təvəllüdlü Səkinə Bayramova, 2011-ci il təvəllüdlü Nərmin Bayramova hadisə yerindəcə ölüblər.

Minik maşınının sürücüsü Mansur Bayramov isə xəsarət aldığından Biləsuvar rayon xəstəxanasına aparılıb. Faktla bağlı Baş Dövlət Yol Polisində cinayət işi qaldırılıb.

## Bərdədə ana və qızı qaz partlayışı zamanı öldü



**Bərdə rayonunun Uğurbəyli kənd sakini Əli Məmmədovun evində qaz balonunun partlaması nəticəsində ailə üzvlərindən iki nəfər ölüb, beş nəfər yaralanıb. APA-nın Qarabağ müxbirinin hadisə yerindən verdiyi xəbərə görə, partlayış nəticəsində 1992-ci il təvəllüdü Məmmədova Fidan Abil qızı və onun 2 aylıq uşağı Məmmədova Dəniz Vüsal qızı ölüblər. Yaralılar yanıq xəsarəti ilə Bərdə mərkəzi rayon xəstəxanasına çatdırılıb. Onların vəziyyətinin ağır olduğu bildirilir.**

YENİ MÜSAVAT
N 272 (6300) 7 dekabr 2015

**Azərbaycan insanı son illər sosial şəbəkənin, internetin əsirinə çevrilib. Bəzən gün ərzində yeganə əyləncə elə bu sosial şəbəkə, orda yazılanlar, paylaşılanlara reaksiya, müzakirələr və... bununla da internetlə təmas yekunlaşır. Amma bir az ağlını işlədənlər sosial şəbəkələrdən də, internetdən də pul qazanmanın yollarını tapıblar. Nəticədə isə monitor arxasında oturmaqla "sayğac" da işə düşür və onlar daha çox qazanırlar.**

# İnternet insanları necə milyoner edə bilər?

## Kompüter arxasında oturub milyoner olmaq mümkündür

**Məşhurlar ayda sosial şəbəkədən minlərlə dollar qazanır**

Məlumdur ki, məşhurlar öz instaqram səhifələrindən pul qazanma yoluna üstünlük verirlər. Belə ki, firmaların reklamına, hansısa gözəllik salonunun, yeni çıxan məhsulun... tanıtımına səhifələrində icazə verən məşhurlar hər paylaşımdan bəlli məbləğ alırlar. Nəticədə ay ərzində bu reklamların faizləri üst-üstə yığılır və 10 min dollardan başlanan bir məbləğə yüksəlir. Təbii ki, sıravi insanların belə bir şansı yoxdur. Amma sosial şəbəkədə və internetdə pul qazanmaq üçün xeyli optimal üsullar var.

Başlayaq sosial şəbəkədən. Burada reklamdan pul qazanmaq imkanı daha da artacaq. Facebook-a yüklənən videolar bundan sonra tək şəbəkə daxilində paylaşılmayacaq, başqa saytlara da yüklənə biləcək. Artıq facebookda videolar "embed" kodu ilə paylaşıla biləcək. Bu yolla istifadəçilərin pul qazanmaq imkanı olacaq. Tezliklə aktivləşdirilməsi gözlənilən bu funksiya sayəsində facebookda paylaşılan videolar tək sosial şəbəkə daxilində deyil, digər saytlara da yüklənə biləcək. Bu paylaşılan videoların üzərinə reklamlar da yerləşdirilə biləcək. Bu da facebook istifadəçilərinə reklamdan da pul qazanmaq imkanı yaradacaq.

Qeyd edək ki, indiyədək facebooka yüklənən videolar yalnız şəbəkə daxilində paylaşıla bilirdi. Lakin "embed" kod vasitəsilə facebooka yüklənən video başqa saytlarda da yüklənə biləcək.

**Video ilə pul qazanmanın ilginc yolları**

Azərbaycanda tanınmış blogger sayılan Nurlan Abbaszadə internetdən pul qazanmağın müasir üsulları barədə məlumatlıdır və bununla bağlı öz bloqunda arayış xarakterli material hazırlayıb. Onun yazdığına görə, 2015-ci ildə bu cür sistemlərlə pul qazanmaq daha da böyük potensial vəd edir. Lakin, bu hər kəs üçün keçərli deyil. Hər internetə bağlantısı olan insan internetdən pul qazanmaq üçün yararlı sayılmır. Bunun üçün bir sıra kriteriyalar vardır. Əgər internetdən pul qazanmaq asan olsa idi, bunu hər kəs bacarardı.

Blogger internetdən pul qazanmanın yollarını 4 əsas maddədə birləşdirib:

1) Video hazırlayaraq internetdən pul qazanmaq

2) Məqalə yazaraq internetdən pul qazanmaq

3) Proqramlaşdırma ilə internetdən pul qazanmaq

4) Forex sistemi ilə internetdən pul qazanmaq

Bu yazımda sizlərə ilk olaraq birinci maddə haqqında danışacağam.

YouTube internetdən portalından video hazırlayaraq internetdən pul qazanmaq haqqında yəqin ki çoxlarınız eşitmisiniz. Lakin, bu sistemin necə işlədiyi haqqında təsəvvürünüz yoxdur.

Təməl Məntiq !

YoUTube - dan pul qazanmaq üçün əsas alqoritm beledir.

Kanal yaradırıq , kanalımıza videolar yerləşdiririk, kanalımızı reklam edirik və abunəçilərimizi artırırıq. Kanalımıza YouTube- reklamlar yerləşdirir, yəni videolarımıza avtomatik olaraq bu videolar yüklənilir YouTube tərəfindən. Bu videolara tıklama və göstəriş sayısına görə isə YouTube - bizə pul ödəyir. Ödənilən pul Google Adsense hesabımıza yüklənilir, buradan isə bizim bank hesabımıza nağd olaraq göndərilir

Nədən başlamalı?

Birinci addım olaraq özünüz haqqında düşünün. Hansı sahəyə daha çox marağınız var və hansı sahə haqqında videolar hazırlaya bilərsiniz ?

Blogger yazıb ki, özü internetdən pul qazanmaq mövzusunda videolar hazırlamağı seçib. Bunun üçün ilk olaraq YouTube- da qeydiyyatdan keçmək lazımdır: "Qeydiyyat üçün ilk olaraq bizə Google Account lazımdır, istənilən bir GMAİL hesabı ilə mümkündür. GMAİL.COM - saytında qeydiyyatdan keçərək özümüzə bir hesab açırıq. Hesab açdıqdan sonra bu hesabımızla YouTube-a daxil oluruq. Gələk ən əsas addımda daxil olduqdan sonra, kanal yaratmalıyıq. Kanal yaradan zaman, ölkə seçimimizi Amerika olaraq seçmək daha yaxşıdır çünki Azərbaycandan olan kanallar gec təsdiqlənilir internetdən pul qazanmaq üçün. Kanal hazır olduqdan sonra ilk 3 həftə daimi olaraq videolar hazırlamalı və kanalımıza yerləşdirməliyik. Diqqət etməmiz gərəkən əsas nöqtə isə videolar oğurluq olmamalı və tamamilə özümüzə aid olmalıdır. Sıfırdan video hazırlamaq daha məsləhətlidir. Təxmini 5-10 video hazırladıqdan sonra, kanalımızı YouTube-da pul qazanmaq funksiyasına açıq edirik. Bunu necə etməli? Kanalımızı inkişaf etdirmək və abunəçi sayımızı artırmaq əsas addımdır. Çünki abunələr çox olduqca baxış sayı və tıklama çox olacaq, yəni qazanc daha çox olacaq. Nə qədər çox kütləmiz olarsa, qazancımız da çox olacaq.

Əsas olaraq çalışmaq lazımdır ki, keyfiyyətli və maraqlı videolar hazırlayaraq insanların marağını qazanmaq. Buna görə də, öz üzərinizdə daha çox çalışın yeni-yeni proqramlar öyrənin və daha keyfiyyətli videolar yükləyin. Kanalınızı inkişaf etdirmək üçün, digər kanallara reklam yerləşdirin və kanal sahibləri ilə danışaraq abunəçilər alın. Pullu reklam yollarını da yoxlaya bilərsiniz. Facebook - səhifəsi açmaq da məsləhətlidir. İşinizi professionalı olmaq üçün nə lazımdırsa edin.

Ritmik olmaq dediyimiz zaman, yəni özünüzə bir ritm müəyyən edin. Həftəlik olaraq və ya 3-4 gündən bir videolar yükləyin. Bir ritm üzərində gedin. Misal üçün, ritminizi həftəlik olaraq müəyyən edərsəniz, hər həftə yeni bir video yaratmalı və paylaşmalısınız. Ritmik olduğunuz və eyni tempdə getdiyiniz zaman, YouTube - tərəfindən daha tez cəlb olunacaqsınız, yəni YouTube sizi daha çox ciddiyə almağa başlayacaq".

**Firmaları gözardı etmədən qazanaq?**

Amma internetin təklif etdiyi şərtlər bununla yekunlaşmır. İnternetdən pul qazamaq üçün aşağıdakı üsullar da var.

1) Affiliate Marketing System (Satışa çıxarma və Ortaqlıq Sistemi): Yerli xarici bir çox internet saytının təqdim etdiyi bu imkan üçün komissiyaçılığın bir az daha inkişaf etmiş versiyas(n)ı deyə bilərik. Sayta üzv olursunuz, satacağınız məhsulları təyin etdikdən sonra bu məhsullara uyğun bir müştəri portföyü meydana gətirməlisiniz. Bu ümumiyyətlə ilk başlarda yoldaşlardan meydana gəlir. Qısacası edilən bütün bu əməliyyatlardan qazanırsınız və ən əhəmiyyətlisi məhsul satarağ 2 fərqli şəkildə qazana bilir olmanız.. Birincisi satdığınız məhsulun komissiya əvəzi, ikincisi isə daha çox müştəri taparaq, daha çox qazanan və qazandıran bir satıcı olaraq komissiya əvəzinizin artması, fərqli sabit gəlir, hədiyyələr kimi gedərək daha çox qazanmanız üçün sizi motivasiya edəcək əlavə fürsətlər.

2) Arcade Qəmə Design (Kompüter Oyun Dizaynı) : Əlbəttə ki böyük firmaların milyonlarla dollar qazandığı amma yüzlərlə şəxsiyyət qruplarla 5-6 sənədə etdikləri oyunlardan bəhs etmirik. Bunun üçün bütün şərtlər təmin edilsə belə təhsil almaq şərt və çox təəssüf ki ölkəmizdə bu təhsili verən bir təşkilat yox. Bu səbəbdən əsl bəhs etmək istədiyimiz kiçik ölçülü oyunlar. Hər kəs tərəfindən sevilən, çox sadə və axmaq olmasına baxmayaraq asılılıq yaradacaq qədər əyləncəli olmaları bu oyunlara olan tələbin sürəkliliğini təmin edir. Yaxşı necə edilər? İnternetdən əldə edə biləcəyiniz flash və java proqramları və necə ediləcəyini öyrənə biləcəyiniz videoları rahatlıqla tapa bilərsiniz. Bir çox sayta sata biləcəyiniz kimi özünüzdə sata bilərsiniz, ölçüləri kiçik olduğu üçün çox yer/yeyər örtməyən bu oyunları cib telefonlarına belə yükləyə bilərsiniz. Hətta bu mövzuda edilən müxtəlif yarışmalara qatılaraq mükafat qazana bilərsiniz.

3) İctimai Media Mühəndisliyi (İnternet Reklam Xidmətləri): İnternetin sürətlə həyatımızın hər sahəsinə girdiyinin fərqində olan firmalar, bir çox ictimai şəbəkənin meydana gəlməsindən faydalanaraq çox daha qısa müddətdə və çox daha çox insana çata bilmək üçün internet reklam xidməti təmin edənlərə yönəldilər. Bunun nəticəsində də "ictimai media mühəndisliyi" adında bir peşə ortaya çıxdı. Mühəndislik nə dərəcə doğru bir tərif mübahisə et/müzakirə edilər lakin çox təsirli və tələb görən bir iş etdikləri ortada. Yaxşı nə edir bu adamlar? Belə ki ictimai paylaşma saytlarına girib söz mövzusu firma adına hesab, qrup, səhifə tərzində şeylər açırlar və üyerle yoldaş olurlar vs. . Beləliklə həm firma təqdimatını edir, həm unudulmur həm də ünsiyyət təmin edilərək anketlər və oyunlar ilə müştəri məmnuniyyəti işlərini etmiş olurlar.




**Pul qazanmaq üçün Facebook hesabını bağlamaq?**

Bütün bunlar real təkliflər. Amma işin zarafat tərəfi də var. O da aşağıdakıdır. Sosial şəbəkədə pul qazanmaq üçün aşağıdakı üsuldan istifadə etmək olar.

Əgər Facebook-da pul qazanmaq istəyirsinizsə, o zaman aşağıda göstərilən qaydalara olduğu kimi əməl edin.

Birinci addım: Facebook-un yuxarı sağ hissəsində yerləşən alətlər panelindən "Hesab tənzimləmələri" (Account settings) bölməsinə keçirsiniz. Bundan sonra açılan tənzimləmələr bölməsinin sağ tərəfdəki sütununda "Təhlükəsizlik" (Security) bölməsini seçirsiniz. Bu bölmənin aşağı hissəsində "Hesabı bağla" (Deactivate your account) adlı hiper keçid var. Bu keçidi klikləyərək, sosial şəbəkədəki hesabınızı ləğv edirsiniz.

İkinci addım: Bundan sonra virtual deyil, real həyatda yaşayaraq, pul qazanmağa, sevməyə, sevilməyə çalışırsınız. Real həyat virtual həyatdan daha gözəldir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 272 (6300) 7 dekabr 2015

# Evini pişiklərə miras qoydu

İtaliyanın Bologna şəhərində pişik sevən bir qadın evini küçədəki pişiklərə miras qoyub. Fiorella Scannabissi adlı qadın həyatda olduğu zaman bəslədiyi pişiklərin onun ölümündən sonra sahibsiz qalmaması üçün 1992-ci ildə yazdığı vəsiyyətə heyvanları da daxil edib. Yaşlı qadın 7 otaqlı evinin satılmasını, pulunun isə pişiklərin saxlanıldığı sığınacağa verilməsini istəyib. Qadının ölümündən sonra ortaya çıxan vəsiyyət qohumların etirazına səbəb olsa da, heç nə dəyişməyib. Ev satılıb və pulu Trebbo di Reno adlı pişik sığınacağına bağışlanıb. İtaliya mediasında dəyəri 230 min avro olan evin pişiklər üçün Yeni il hədiyyəsi olduğu yazılıb. Sığınacağın müdiri isə pulun təmir üçün çox vacib olduğunu dilə gətirib. Artıq sığınacaqda 100-dən çox pişiyə baxmaq mümkün olacaq.



## Kökəlmək istəyənlər üçün qızıl məsləhət



Dünyada köklükdən əziyyət çəkənlər olduğu kimi, həddən artıq arıq olduğu üçün 4-5 kilo kökəlmək istəyənlər də var. Ancaq onların işi arıqlamaq istəyənlərdən daha çətindir. Çünki onlar nə qədər yağlı, karbohidratlı qidalar qəbul etsələr də, kökəlmirlər. Orqanizm normal çəkini ala bilmirsə, deməli əsaslı səbəb var. Güclü əsəb pozğunluğu yaşanırsa, stressli haldadırsa, zəhərli zob, qurd və s. bu kimi hallar varsa, öncə bu fəsadlardan qaldırmaq lazımdı. Çünki bu problemlər aradan qalxmasa, nə qədər qida yeyilsə belə yenə də problem yaşanacaq. Müalicədikdə zamanla orqanizm öz çəkisini alacaq. Bəzən insanlar bol kalorili, zülallı qidalar gecə-gündüz dəmədən yeyirlər. Lakin bu doğru variant deyil. Çünki gecə yağlı piti, xaş, yaxud mədə dolu olsun deyə digər qidalar yeyilərsə, bütün gecəni mədə işləyəcək, insan da dərin yuxu ala bilməyəcək. Bu da birbaşa sinir sistemini sıradan çıxaran vərdişlərə gətirib çıxarır. Aşağıdakı qidalar normal kökəlmə üçün sizə yardımçı olacaq:

- Çərəzlər
- Təzə pendir
- Banan
- Vineqret salatı
- Üzüm
- Günəbaxan tumu
- Bağayarpağı
- Gülxətmi dəmləməsi
- Biyan kökü
- Qarğıdalı
- Noxud
- Bal, arı mumu
- Doşab
- Xurma
- Gilas
- Armud

# Ətin faydaları

Ev heyvanlarının əti insan orqanizmini lazımi maddələrlə təmin edən qidalardan ən önəmlisidir. Mal əti həm qida maddəsi kimi, həm də müalicəvi-profilaktik baxımdan faydalıdır. Mal əti bədəni qüvvətləndirir, kökəldir, pəhriz məqsədilə münasibdir, sidikqovucu təsirə malikdir. Qoyun əti bədənə istilik verir, kökəldir, orqanizmi möhkəmləndirir, qan yaradır. Daxili üzvləri, o cümlədən ürək, böyrək və qaraciyəri möhkəmləndirir. Tam bişmiş toyuq əti orqanizm tərəfindən çox tez həzm olunur, təmiz qan yaradır. Cücə əti tez kökəldir, üzün rəngini yaxşılaşdırır, beyinin fəaliyyətini gücləndirir. Ördək əti isə səsi saflaşdırır, qan yaradır, amma gec həzm olunur və baş ağrısı yaradır. Piyi öskürək üçün faydalıdır. Qaz əti və yumurtası çətin və gec həzm olunur. Arıqlıq, öskürək və sinə ağrısı hallarında yumurtasını ılıq bişirib yemək faydalıdır. İki yaşına qədər cavan dəvənin əti daha yaxşı həzm olunur. Ancaq bu ətdən çox istifadə etmək ödəsab olunur. Ancaq bu ətdən çox istifadə etmək öd xəstəliyi törədir. Keçi əti də faydalıdır. Keçi piyi sürtmək ağrıları sakitləşdirir, soyuqdəyməni azaldır. Keçi əti böyrək və sidik kisəsi daşının tökülməsində çox təsirlidir.



## "Milan" və "İnter" klublarının zibilə görə 5 milyon borcu var



İtaliyanın "Milan" və "İnter" klubuna təmsil olunduqları şəhərin bələdiyyəsi tərəfindən qəbz göndərilib. Hər iki klub bələdiyyəyə 5 milyon avro ödəməlidir. Məsələ burasındadır ki, Milan şəhərinin təmsilçiləri "San Siro" stadionunun xidmətindən müştərək istifadə edirlər. Bələdiyyə isə arenanın zibil tullantılarına görə klubların quruma 5 milyon avro borclarının olduğunu üzə çıxarıb. Eyni stadionu istifadə edən klublardan bu borcu birlikdə ödəməsi tələb olunub. Sözügedən borc 2000-2004-cü illəri əhatə edir. Hazırda klub rəsmləri borcu necə ödəmək üzərində baş sındırır. Klub rəhbərliyi yaxın günlərdə borcun ödənilməsinə söz verib.




QOÇ - Təxminən saat 15-ə qədər ümumi ovqatınızda gərginlik müşahidə oluna bilər. Bu səbəbdən də həmin ərəfədə riskli işlərin həllini təxirə salın. Sonrakı müddət qismən sakit keçəcək.

BUĞA - Qarşınızda bu ayın ən uğurlu günlərindən biri durur. Bu səbəbdən də verilmiş imkanlardan istifadə edin. Günün ilk yarısında qazanmaq ehtimalınız da var. Düşmənçilikdən əl çəkin.

ƏKİZLƏR - Əsas gücünüzü sevgi amilinə yönəldin. Çünki bu gün yeganə rahatlığı məhəbbətdə tapacaqsınız. Ünsiyyətdə olduğunuz digər insanlarla isə ciddi mübahisələriniz gözlənilir.

XƏRÇƏNG - Əgər fəaliyyətlə bağlı ciddi bir işiniz yoxdursa, günün əsas hissəsini gəzinti və qonaqlıqlarda keçirin. Sevən aşiqlərsə mütləq görüşə çıxmağa çalışmalıdır. Bəxtinizə inanın.

ŞİR - Bəri başdan yeni və sevindirici xəbərlərə hazır olun. Yaxın ünsiyyətdə olduğunuz şəxslərlə münasibətləri mülayimləşdirin. Dara düşən simsarlarınıza, dostlarınıza yardım əlinizi uzadın.

QIZ - Ulduzların düzümü şəxsi büdcənizi artırmaq üçün geniş imkanlarınızın olduğunu bəyan edir. Ələlxüsus da çoxdan bəri ala bilmədiyiniz məbləği əldə etmək üçün fəallaşmalısınız.

TƏRƏZİ - Axşama qədər Ay bürcünüzdə olsa da, rastlaşdığınız hadisələr ovqatınızın mənfi müstəviyə yönəlməsinə imkan verməyəcək. Ayın sonuna qədərki planlarınızı məhz bu gün tutmalısınız.

ƏQRƏB - Tanrının qüdrətini duymaq üçün gözəl vaxtdır. Tövbə etmək, nəzir və ya cədəqə vermək, yaxud da sadəcə, ziyarətə getmək əsəblərinizi xeyli sakitləşdirə bilər. Bundan yararlanın.

OXATAN - Son zamanlar az qala hamı fikirlərinizə qarşı çıxır. Lakin narahatçılığa heç bir əsas yoxdur. Çünki nahardan sonra hərəkətlərinizdə əsasən haqlı olduğunuzu çoxları hiss edəcək.

OĞLAQ - Səhhətinizi kontrolda saxlasanız, ixtiyarınızda olan bu təqvimdən razı qalacaqsınız. Fəaliyyət zəminində isə bir neçə yeniliyin şahidi olacaqsınız. Yeni təkliflərlə razılaşın.

SUTÖKƏN - Qarşınızda duran bu təqvim sizin üçün çox uğurlu keçməlidir. İstər əməkdaşlıq zəminində və işgüzar sövdələşmələrdə, istərsə də qarşılıqlı münasibətlərdə hər şey ürəyinizcə olacaq.

BALIQLAR - Çoxdan görüşmədiyiniz adamlarla rastlaşa bilərsiniz. Amma çalışın ki, onlara giley-güzardan yox, sevindirici məqamlardan danışasınız. İndi problemi danışmaqla həll etmirlər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 17 milyardlıq xəzinə




Kolumbiya prezidenti Juan Manuel Santos 1708-ci ildə Karib dənizində batan və uzun illərdir axtarılan San Jose adlı ispan gəmisinin tapıldığı haqda açıqlama verib. Santos tvitter hesabındakı səhifəsində gəminin tapıldığını yazıb, daha ətraflı isə ertəsi gün mediaya açıqlama verib. İçində 3-17 milyard dollarlıq xəzinə olduğu güman edilən San Jose gəmisi xəzinəni oğurlamaq istəyən ingilislərin hücumundan sonra batmışdı. 1708-ci ildə batan gəmi isə bu günə qədər müxtəlif qruplar tərəfindən axtarılıb.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.